# İlham Əliyev: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq"


**Səs**

№ 184 (6384) 9 oktyabr 2021-ci il. Qiymətı 40 qəpik




*Öz torpaqlarında Vətən müharibəsinə qalxan Azərbaycanın gücünü təkcə məğlub, işğalçı Ermənistan deyil, bütün dünya gördü.*

Səhifə 2



## "BMT-Azərbaycan münasibətləri səmərəli əməkdaşlıq ruhunda qurulub"

3



## YAP GB ilə "Jas Otan" gənclər təşkilatı arasında görüş keçirilib

3

# İstedadlı alim və görkəmli şəxsiyyət - Aida İmanquliyeva



*Xalqımızın tarixində ilk azərbaycanlı qadın - ərəbşünas elmlər doktoru olan böyük alim Aida İmanquliyeva həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin köklərlə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edərək şərəfli bir ömür yaşamışdır.*

Səhifə 4

## Hər il dünyada eynək istifadə edənlərin sayı artır...



Gözlərdə görmə zəifliyi yaradan əsas səbəblərdən biri genetik meyillilikdir. Mənfi və ya müsbət nömrəli eynək istifadəsinə göstərişlərin əksəriyyəti genetik amillərlə əlaqədardır. Bundan başqa, konyunktivit xəstəliyi, xüsusilə də allergik konyunktivit gözlərdə qaşıntı yaradır.

16

Bax 14

## İrəvanla Eçmiədzinin "b" planı: bu dəfə "avropalı qardaşlar"

"Son günlər Cənubi Qafqazda müşahidə edilən İran-Azərbaycan qarşıdurması fonunda Ermənistandakı situasiya ikinci plana keçid alıb, daha dəqiq desək, bu ölkənin...

Bax 16

## Payızda hansı qidaları qəbul etməliyik?

*Mövsümi olaraq bu günlərdə əvvəlkindən daha çox qidalanmamıza diqqət yetirməliyik. SİA xarici mətbuata istinadən bildirir ki, payızda immuniteti gücləndirmək və yorğunluğu aradan qaldırmaq üçün müəyyən vitamin tərkibli qidaları istehlak etməliyik. Bəs bunlar hansılardır?*

## Vətən müharibəsində erməni hərbçilər niyə qaçırdılar?






## Xərçəngin düzgün müalicəsi - Həkim şok faktlar açıqladı!

## Dini dəyərlər necə istismar edilir?






## Erməni terroru bəşəri bəlaya çevrilir

8

*Neft dünyada əsas amildir. Bu mənada, neft ölkəsi olan və Bakı-Tbilisi-Ceyhan kimi qlobal bir layihəni reallaşdıran Azərbaycan neft amilindən təzyiq...*



## Bakıdan Moskvaya şikayət edən Tehran

13

İranlı nazir Bakının xarici dövlətlərin iştirakı ilə keçirdiyi hərbi təlimləri təxribat adlandırdı və eyni zamanda, Tehranın "Qafqazda xəritədə...

# İlham Əliyev: ”Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq”

***“Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır". Bu fikirləri Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində bildirib.***



Bildiyimiz kimi, ölkəmizdə 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən Vətən müharibəsində həyatını itirən şəhidlərin xatirəsinin anılması Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı ”Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” Sərəncama əsasən qeyd edilir. Sentyabrın 27-də xalqımız müharibənin başlanmasının birinci ildönümünü, Anım gününü qeyd etdi.

### ”BİZ BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏKİ MƏĞLUBİYYƏTLƏ BARIŞMADIQ, GÜC TOPLADIQ, BÜTÜN GÜCLƏRİ SƏFƏRBƏR ETDİK”

”İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu”- deyə Prezident bildirib. Ötən əsrin 90-cı illərində baş verən hadisələr Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri Azərbaycana qarşı hərbi təcavüzlə nəticələndi. 1990-cı illərin əvvəlində Azərbaycan olduqca mürəkkəb vəziyyətlə qarşı-qarşıya idi və siyasi, iqtisadi böhran dərin tənəzzülə yol açmışdı. Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir Liderə ehtiyac olduğunu şərtləndirirdi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı bizi milli müstəqilliyimizi itirmək təhlükəsindən xilas etdi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyimizin mükəmməl konsepsiyasını yaratdı. Dahi Şəxsiyyətin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf yoluna qədəm qoydu. Ümummilli Liderin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən bu gün müasir dövrün tələbləri və reallıqlarına müvafiq Azərbaycan inkişaf edir. 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. ”Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik”- deyən Cənab Prezident bildirib ki, biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik: ”Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq. Ermənistan döyüş meydanında məğlub olarkən yenə də ən çirkin əməllərə əl atdı, mülki şəxslərə qarşı hərbi təxribat törətdi. Yüzdən çox mülki şəxs erməni faşizminin qurbanı oldu Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi. Bizi heç kim və heç nə dayandıra bilməzdi”.

### ”44 GÜN ƏRZİNDƏ BİR GÜN DƏ OLMAYIB Kİ, BİZ GERİYƏ ADDIM ATAQ”

Öz torpaqlarında Vətən müharibəsinə qalxan Azərbaycanın gücünü təkcə məğlub, işğalçı Ermənistan deyil, bütün dünya gördü. Cənab Prezident bildirib ki, müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq: ”Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq”.

Müharibə dövründə hər bir azərbaycanlı Azərbaycan Prezidentinin ətrafında daha sıx birləşdi. Və hər kəs Ali Baş Komandanın əmrini gözləyirdi. Xalq-iqtidar birliyi ən çətin anda belə özünü göstərdi. Dövlət başçısının bildirdiyi kimi, Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi: ”Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq”.

Müharibə dövründə ermənlər fərarilik göstərdi. Azərbaycan xalqı isə məğlubedilməzliyini ortaya qoydu. Statistik məlumatlara əsasən, Ermənistan ordusunda 10 mindən çox fərari olub. ”Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik”, - deyə Cənab Prezident bildirib.

> *Öz torpaqlarında Vətən müharibəsinə qalxan Azərbaycanın gücünü təkcə məğlub, işğalçı Ermənistan deyil, bütün dünya gördü.*

### XALQIN BİRLİYİNİN VƏ SARSILMAZLIĞININ NÜMUNƏSİ

Bu gün Azərbaycan xalqı şəhidlərimizi böyük ehtiramla yad edir. Anım Günündə Bakı şəhərində keçirilən yürüş Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza böyük ehtiramın nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, Birinci Xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə olan böyük sevgini bu yürüşlə bir daha ifadə ediblər.

44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib. Düşmənin hədəf aldığı Gəncə şəhərinin, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonlarının dinc sakinləri əzizlərini, evlərini itirsələr də, ən ağır günlərində Vətən uğrunda əzmkarlıq və birlik nümayiş etdiriblər. Xalqımız mərd, məğrur insanları ilə qürur duyur və illər, əsrlər boyu bu xatirələrdə, əsərlərdə yaşanılacaq. Bir dastana, eposa çevriləcək. Hər bir vətən oğlu qəhrəman övlad kimi gələcək nəsillərə nümunə olaraq təqdim ediləcəkdir.

### ”QARABAĞ BİZİMDİR! QARABAĞ AZƏRBAYCANDIR!”

Bəli, Azərbaycan xalqı ”dəmir yumruq” əməliyyatı ilə torpaqlarını işğaldan azad etdi. Xalqımız Vətənin müdafiəsi və torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda birliyini, gücünü bütün dünyaya nümayiş etdirdi. Qeyd edək ki, ötən il noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan edərək: ”İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! ... Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” deməsi hər bir azərbaycanlının qəlbində böyük bir sevinc yaşatdı. Əvəzsiz və əbədi sevinc hissini. ”Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir”, - deyə Prezident bildirib.

Vətən müharibəsi Azərbaycan tarixinə silinməz bir tarixi həkk etdi. Şəhidlərimizin, qəhrəman oğulların vətənpərvərliyi, şücaəti sayəsində Azərbaycan böyük bir qələbəyə imza atdı. Dövlət başçısı müraciətində bildirib ki, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm: ”Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq!”

Bu gün Azərbaycan xalqı böyük qələbədən sonra işğaldan azad olunmuş torpaqlara BÖYÜK QAYIDIŞA başlayıb: ”Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”, - deyə Cənab Prezident bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “BMT-Azərbaycan münasibətləri səmərəli əməkdaşlıq ruhunda qurulub”

*Dövlət Statistika Komitəsində görüş keçirilib*



***Oktyabrın 8-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyeva ilə görüşüb.***

SİA-nın məlumatına görə, görüşdə son illər ərzində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə BMT qurumları arasındakı əməkdaşlıqdan danışılmış, bu əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin, xüsusilə də Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının, ”Milli Dayanıqlı İnkişaf Məqsədlərinin Monitorinq Sistemləri üzrə BMT-DSK Birgə İşçi Qrupu”nun yaradılmasının, ”Azərbaycan kontekstində Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumatların dezaqreqasiyası” mövzusunda beynəlxalq seminarın təşkilinin, BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) və Dövlət Statistika Komitəsi arasındakı əməkdaşlıq çərçivəsində ”DİM-lər üçün məlumatların dezaqreqasiyası” adlı praktiki vəsaitin hazırlanmasının ölkə statistikasının inkişafı istiqamətində mühüm addımlardan olduğu bildirilmişdir.

Səmimi görüşə görə Tahir Budaqova öz təşəkkürünü bildirərək BMT-Azərbaycan münasibətlərinin səmərəli əməkdaşlıq ruhunda qurulduğunu və Dövlət Statistika Komitəsinin BMT-nin əsas tərəfdaşlarından biri olduğunu qeyd edən xanım Vladanka Andreyeva bütün təşəbbüslərdə Dövlət Statistika Komitəsini dəstəkləyəcəyini bəyan etdi.

# YAP GB ilə “Jas Otan” gənclər təşkilatı arasında görüş keçirilib

***Qazaxıstan Respublikasının Çimkent şəhərində Yeni Azərbaycan Partiyası Gənclər Birliyi ilə Qazaxıstanın ”Nur Otan” partiyasının ”Jas Otan” gənclər qolu arasında ikitərəfli görüş keçirilib. SİA-nın məlumatına görə, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Yeni Azərbaycan Partiyası və ”Nur Otan” partiyasının gənclər təşkilatları arasında yeni əməkdaşlığın yaranmasının, qarşılıqlı səfərlərin, birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.***





B.İslamov Azərbaycanın möhtəşəm zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsi barədə ətraflı məlumat verib. Qeyd edib ki, ərazi bütövlüyünü bərpa edən Azərbaycan regionda yeni reallıqlar yaradıb. Bəxtiyar İslamov ”Jas Otan” gənclər qolunun sədrini ölkəmizə səfərə dəvət edib.

Qazaxıstanın ”Nur Otan” partiyasının ”Jas Otan” gənclər qolunun sədri Nurcan Jetpispayev rəhbərlik etdiyi təşkilat barədə ətraflı məlumat verərək qarşılıqlı münasibətlərin önəmini diqqətə çatdırıb. Hər iki ölkənin hakim partiyalarının gənclər təşkilatları arasında təmasların inkişafı baxımından əhəmiyyətini qeyd edib. N.Jetpispayev bir daha Qazaxıstan gəncləri adından Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbə münasibətilə təbriklərini çatdırıb.



Görüşdə hər iki partiyanın gənclər təşkilatları arasında əməkdaşlığın gələcək inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Sonda xatirə hədiyyələri təqdim olunub.

# İsrailli ekspert Ermənistan tərəfindən Azərbaycan ərazilərində törədilmiş vandalizmdən danışıb




İran özünün sərt və düşünülməmiş hərəkətləri və bəyanatları ilə Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar edilməsi prosesini pozur. AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri Arye Qut bu barədə İsrailin Doqquzuncu televiziya kanalının birbaşa efirində danışıb.




Arye Qut bir neçə ay bundan əvvəl erməni işğalından azad edilən ərazilərdə olduğunu vurğulayıb. O deyib: ”Erməni işğalı nəticəsində yandırılan torpaqlarda olduğum ilk andan məndə elə hiss var idi ki, sanki bu ərazilərə dəhşətli taun gəlib. İşğaldan azad edilən bütün ərazilərdə nə bir məktəb, nə bir uşaq bağçası, nə bir kitabxana və muzey, nə də bir daş üstə daş qalmışdı. Erməni təcavüzkar ordusu Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan kimi şəhərləri yer üzündən silərək talançılıq və vandalizmlə məşğul olub. Erməni işğalçıları 28 il ərzində bu ərazilərdə kütləvi vandalizm, urbisid, ekoloji və mədəni soyqırımı törədərək Azərbaycanın bu gözəl regionunu dağıdıb və yerlə-yeksan ediblər”.

İsrailli ekspert qeyd edib ki, əvvəllər küçələrin və evlərin, məktəblərin və muzeylərin olduğu yerdə o, dağıdılmış qapı-pəncərə yerləri görüb. Bütün xarabalıqlarda ağaclar bitmişdi. Arye Qut vurğulayır: ”Əgər ermənilər bu əraziləri özününkü adlandırırlarsa, o halda niyə bu ərazilər kabus şəhərlər kimi görünür, niyə onlar bu ərazilərdə çoxsaylı minalar və tanklar üçün tunellər qoyub gediblər, görəsən, ermənilərdə vətən anlamı belə xəyalidirmi? Məgər Qarabağı özününkü adlandıran ölkə şəhərləri faşistcəsinə məhv edə, onları kabus şəhərə çevirə, oranı tərk edəndə bütün evləri yandıra bilərmi? Bəs ”ədalətli” İran bütün bu müddətdə harada idi?!”

Arye Qutun sözlərinə görə, Avrasiyada heç bir ölkənin İsraillə Azərbaycan kimi sıx, səmimi, strateji və dostcasına münasibəti yoxdur. İsrailli ekspert deyib: ”Hazırda İsraildə Azərbaycan səfirliyi yoxdur. Lakin bu ölkə Təl-Əviv ilə artıq 30 ildir möhkəm, hərtərəfli və sıx dövlətlərarası münasibət saxlayır”.

Ekspert daha sonra deyib: ”Ermənistan İkinci Qarabağ müharibəsində tam geosiyasi, diplomatik və hərbi fiaskoya uğrayıb. Ermənistan razılaşa bilmir ki, məhz Azərbaycan Cənubi Qafqazda İsrailin çox mühüm strateji tərəfdaşıdır, Azərbaycan İsraillə hərbi-strateji tərəfdaşlıqdan bütün texnoloji üstünlük əldə edir və postsovet məkanında heç bir başqa ölkə bu üstünlüklərə sahib deyil”.

”Qeyd etmək çox vacibdir ki, İsrail-Azərbaycan münasibətləri strateji və hərbi-texniki tərəfdaşlıq xarakteri daşıyır, iki ölkənin yüksək etimad səviyyəsinə malik, daim dialoqda olan hökumətlərarası komissiyası fəal işləyir”, - deyə Arye Qut İsrailin Doqquzuncu televiziya kanalında çıxışına yekun vurub.

***Xalqımızın tarixində ilk azərbaycanlı qadın - ərəbşünas elmlər doktoru olan böyük alim Aida İmanquliyeva həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin kökləri ilə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edərək şərəfli bir ömür yaşamışdır. Bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti ilə böyük nüfuz qazanmışdır. Onun bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti böyük istedada malik olduğunu göstərir. XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın oktyabrın 10-da doğum günüdür.***

# İstedadlı alim və görkəmli şəxsiyyət - Aida İmanquliyeva



Tərcümeyi-halına nəzər salsaq görərik ki, Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi olan atası Nəsir İmanquliyev Azərbaycan mətbuatının bünövrəsini qoyanlardan biri olmuş və uzun müddət "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru işləmişdir. Aida İmanquliyeva Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil alıb. 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi (1966-1976), Ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991) vəzifəsini icra edən Aida xanım 1991-ci ildən həmin institutda direktor vəzifəsində çalışmışdır. 1976-1988-ci illərdə, institutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə, 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib. Şərqşünaslıq İnstitutunun elmi və ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə, 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunmuş, bir il sonra isə, uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru adına layiq görülmüşdür. Beləliklə, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor - qadın olan Aida İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. O, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyib. Buna görə də, SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə, ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə, 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdir.

A.İmanquliyeva 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı hekayələr məcmuəsini çap etdirir. Bundan əlavə, Ərəb filologiyası şöbəsinin əməkdaşlarının tərcüməsində İraq yazıçılarının əsərlərindən ibarət kiçik bir antologiyanın tərcüməsində və çapında da Aida xanımın gərgin əməyini xüsusi qeyd etmək lazımdır. "Ağ günlərin sorağında" adlanan həmin məcmuədə Aida xanımın tərcüməsində İraq yazıçısı Mahmud əz-Zahirin "Boğulmuş hıçqırıqlar" adlı hekayəsi də öz əksini tapıb. Bunlardan əlavə, Aida xanım müxtəlif illərdə respublikanın nəşriyyat orqanları tərəfindən ərəb ədəbiyyatı ilə bağlı çap olunmuş bir çox kitaba ön söz yazmış və xeyli sayda kitabın elmi redaktoru olmuşdur.

Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində (3 monoqrafiya ("Mixail Nuaymə" və "Qələmlər birliyi", "Cubran Xəlil Cubran", "Yeni ərəb ədəbiyyatının korifeyləri" və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır. İstedadlı gənc alim 1967-ci ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra, elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirmişdir.

1964-cü ildə "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi "Azərbaycan" jurnalında dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək, 1979-cu ildə Moskvada "Vostoçnıy almanax" jurnalında çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri dövri mətbuatda - toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur.

Aida İmanquliyeva 1971-1973 və 1979-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru vəzifəsində çalışıb. "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır. A.İmanquliyeva 1987-ci ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və 1983-cü ildən etibarən, sözügedən cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur. Moskva, Bakı, Düşənbə, Hamburq, Kiyev, Sankt-Peterburq, Poltava, Tbilisi və digər şəhərlərdə keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. Müasirləri onun haqqında belə yazırdı: "Aida xanım beynəlxalq aləmdə dünyanın görkəmli alimləri tərəfindən bütün şərqşünaslıq mərkəzlərində məhcər ədəbiyyatının ən sanballı tədqiqatçısı kimi qəbul edilir. Onun əsərlərindən tez-tez istifadə olunur, çıxış nöqtəsi kimi ona müraciət edilir və Aida xanımın fikirləri məhcər ədəbiyyatının ayrı-ayrı problemlərini öyrənmək üçün əsas mənbə rolunu oynayır.

Aida xanımın təşəbbüsü ilə Azərbaycanda simpoziumlar çağırıldı. O, həmin simpoziumların həm təşkilatçısı, həm də əsas məruzəçilərindən biri idi. Bu da Aida İmanquliyevanın beynəlxalq elm aləmində nüfuzundan irəli gəlirdi".

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açmışdır.Böyük insanın çoxşaxəli, zəngin fəaliyyəti Aida xanımı xanımlıqdan məhrum edə bilməmişdi. O, hər şeydən əvvəl öz ailəsini, həyat yoldaşını çox sevən gözəl qadın, qayğıkeş bir ana idi. Aida xanımda Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətləri təcəssüm edirdi. Onun ömür yolu həyatın, varlığın əsasında duran mənəvi bağları qurmağa, tamlığa və vəhdətə can atan bir insan idrakının, bir ana, bir qadın ruhunun təcəssümü olub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# AÇIQLAMA: "Regionda heç bir qüvvə Azərbaycanı nəzərə almadan addım ata bilməz"



"Azərbaycan Prezidenti cənab İlham Əliyevin Tərtər və Bərdəyə ardınca da işğaldan azad olduğu gün Cəbrayıla səfəri zamanı səsləndirdiyi fikirlər Azərbaycan xalqı və region xalqları üçün xüsusilə də Ermənistan cəmiyyətində diqqətlə izlənilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Tərtər rayonuna səfəri zamanı səsləndirdiyi fikirlər region xalqlarına və Ermənistan cəmiyyətindəki revanşist düşüncəli insanlara ünvanladığı mesajlar erməni sosial şəbəkələrində və mətbuatında geniş müzakirə edilir. Hesab edirəm ki, Prezidentin səsləndirdiyi fikirlərlə məhz ünvana çox dəqiq mesajlarını və fikirlərini ötürmüş oldu. Azərbaycan Prezidenti açıq şəkildə bəyan etdi ki, Azərbaycan ordusu və əsgəri böyük qəhrəmanlıq nümayiş etdirərək Ermənistan ordusunun 30 il ərzində möhkəmləndiyi və bir neçə xətt üzrə istehkamlar qurduğu yerləri çox qısa zaman kəsiyində və qətiyyətlə azad etdi". Bu sözləri SİA-ya açıqlamasında Anar Əliyev deyib.

Onun sözlərinə görə, bu, Azərbaycan Ordusunun və əsgərinin gücünü vətən və torpaq uğrunda gözünü qırpmadan ölümə getməyə hazır olduğunu göstərir: "Azərbaycan prezidenti həm də onu çatdırmaq istədi ki, torpaqlarımızın bütövlüyü və sərhədlərimizin toxunulmazlığı uğrunda Azərbaycan əsgəri bundan sonra da istənilən təhdidə qarşı və həmin təhdidi səsləndirəcək qüvvələrə qarşı eyni qətiyyəti və eyni gücü göstərmək iqtidarındadır. Azərbaycan Prezidenti bildirdi ki, "dəmir yumruq" yerindədir. Ermənistanda kimsə hansısa qüvvələrin təhriki ilə revanşist düşüncələrə və Azərbaycanın ərazilərinə hər hansı bir iddia ilə çıxış edərlərsə və ya hər hansı hərəkətlilik nümayiş olunarsa, Azərbaycan çəkinmədən heç nəyi düşünmədən beynəlxalq hüquq normalarına əsaslanaraq dövlətimizə verilmiş hüquqları əsas tutaraq həmin qüvvələrin başını əzəcək və erməni faşizmini bir daha dirçəlməyə imkan verməyəcəkdir. Eyni zamanda Azərbaycan Prezidenti Ermənistanın keçmiş prezidenti cinayətkar Serj Sarkisyana qarşı da fikirlərini bildirdi. Qeyd olundu ki, Serj Sarkisyan Ermənistanın bugünkü vəziyyətə düşməsinin əsas günahkarlarından biridir. Eyni zamanda Azərbaycanın torpaqlarının işğal altında saxlanması dövründə bütün evlərin, tarixi, mədəni, dini abidələrimizin dağıdılmasında birbaşa iştirak etmiş bir cinayətkardır. Ermənistan üzərindən regionda oyunlar qurmaq istəyən, Azərbaycanın yaratdığı reallığı dəyişib yeni proseslər başlatmağı və bu proseslər fonunda da regiona daxil olmağı arzulayan qüvvələrə açıq şəkildə mesajını göndərdi. Heç kim Azərbaycanın maraqlarını nəzərə almadan regionda stabilliyi pozmağa və regionda erməni faşizminin dirçəldilməsinə xidmət edəcək addımlar atmağa cürət edə bilməz. Azərbaycan kimliyindən asılı olmayaraq bu oyunların qarşısını alacaq. Heç bir qüvvə Azərbaycan maraqlarını nəzərə almadan regiona daxil olub hər hansı bir addım ata bilməz".

Politoloq əlavə edib ki, Azərbaycan Prezidenti Cəbrayıla səfəri zamanı eyni zamanda Araz vadisi iqtisadi zonasının yaradılmasını və iqtisadi məhlənin təməlqoyulması prosesini həyata keçirdi: "Cəbrayıl ictimaiyyəti ilə keçirdiyi görüşdə Rusiya və Türkiyənin timsalında digər qonşu dövlətləri də iqtisadi layihələrdə birgə iştiraka dəvət etdi. Azərbaycan Prezidenti bildirdi ki, biz bundan sonra Qafqazda sülh, barış proseslərini başlatmalı regionu barış bölgəsinə çevirməliyik. Bu istiqamətdə Türkiyə tərəfindən irəli sürülən və Azərbaycan dövləti tərəfindən də böyük dəstək qazanmış altılıq platforması ilə bağlı bəzi dövlətlərin əks fikirlərdə olduğunu da qeyd etdi. Əgər digər dövlətlər altılıq platformasında maraqlı deyillərsə, Türkiyə, Rusiya, Ermənistan və Azərbaycanın iştirakı ilə dördlü platforma yaradılacaq. Bu platforma regiona stabillik gətirəcək. Rusiya və Türkiyənin anlaşması bölgəmizə stabillik gətirib. İqtisadi layihələrin keçirilməsinə müəyyən təkan olub".

Anar Əliyev sonda qeyd edib ki, Azərbaycan Prezidenti regionun gələcəyi ilə bağlı baxışlarını da səsləndirdi: "Prezident bildirdi ki, artıq heç kim müharibədən əvvəlki şəraitin yaradılmasına ümid etməsin. Tam yeni bir situasiya, yeni bir mərhələ başlanıb. Bu mərhələnin idarəedicisi məhz Azərbaycandır. Azərbaycan proseslərə adekvat münasibət bildirən qonşularının dəstəyi ilə yeni bir münasibətlər və iqtisadi əlaqələr quracaq. Qarabağ bölgəsində böyük quruculuq işləri başlanılıbdır. Çox yaxşı olar ki, bölgə dövlətləri bu layihələrdə iştirakçı olsunlar. Eyni zamanda Ermənistan yeni xülyalara, yeni xəyallara qapılmasın, yeni reallıqları dərk edərək Azərbaycanla böyük sülh razılaşmasına gedib, qarşılıqlı əməkdaşlığa başlasınlar".

***Qönçə Quliyeva***





# Bakı Zooloji Parkı ən müasir səviyyədə qurulub

**Dünyanın ən müasir və inkişaf etmiş ölkələri sırasında Azərbaycanın yer alması ölkəmizin davamlı inkişafının təmin olunmasında Azərbaycan Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasətin, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsinin nəticəsidir. Dövlət başçısı tərəfindən imzalanan dövlət proqramlarının, sərəncamların uğurla icra olunması nəticəsində ölkəmiz daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran, innovativ inkişafa yol açan dövlətə çevrilir.**







Bu gün Azərbaycanın hər bir bölgəsi yeni inkişaf dövrünü yaşayır. Rayon və şəhərlərdə infrastruktur layihələri reallaşır və hər kənd, hər qəsəbə müasirləşir. Bütün regionun ən iri sənaye, elmi və mədəni mərkəzi olan Azərbaycanın paytaxtı Bakı da gündən-günə inkişaf edərək dünyanın ən gözəl şəhərləri sırasında yer alıb. Bakı qədimliyi ilə müasirliyin vəhdətində füsünkar görünür. Ərazinin böyüklüyünə və əhalinin çoxluğuna görə Bakı hələ qədimdən Şərqin ən böyük şəhərlərindən biri sayılmışdır.

Əzəməti ilə seçilən Bakının tarixi abidələri ona başqa bir rəng əlavə edir. Bakının mərkəzində qədim qala - İçəri şəhər yerləşir, bura YUNESKO-nun Ümumdünya irsi siyahısına salınmış yaşayış məhəlləsi və tarixi-memarlıq qoruğudur. Şirvanşahlar sarayı, Qız qalası, XVII əsrin atəşpərəstlər məbədi - Atəşgah və s. şəhərimizə gələn hər kəsin diqqətini cəlb edir. Bu möhtəşəm tikililər neçə əsrlərin sorağıdır. Bütün bunlarla yanaşı, müasir Bakının yeni rəmzləri meydana gəlib. Dünyanın seyr etdiyi 3 qüllədən ibarət ”Alov Qüllələri” kompleksi, ən müasir konsert kompleksi olan ”Crystal Hall” və onlarla belə möhtəşəm tikililər Bakıya xüsusi yaraşıq vermişdir. Əlbəttə ki, şəhərimizdə salınan yeni parklar, yaşıllıqlar, yeni keçidlər paytaxtımıza yeni görkəm verib.

## ZOOLOJİ PARKDA GENİŞMİQYASLI YENİDƏNQURMA İŞLƏRİ APARILIB

Bakı şəhərində yerləşən zooparkı da onun görəminə bir rəng əlavə edir. Bakı Zooloji Parkı IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulub və parkının yenidənqurmadan sonra açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci Xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılışda iştirak ediblər. Vaxtilə Bakıda ilk dəfə Heyvanat Parkı adlandırılan zoopark 1928-ci ildə Xətai rayonundakı Nizami parkının ərazisində açılıb. 1958-ci ildə isə Bayıl ərazisində yeni Heyvanat Parkı fəaliyyətə başlayıb. 1985-ci ildə torpaq sürüşməsindən sonra Zoopark Bayıldan indiki ərazisinə köçürülüb. Əvvəllər ərazinin təmirsiz olması ilə yanaşı, heyvanların saxlanıldığı yerlər də yararsız vəziyyətdə olub.

IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə burada genişmiqyaslı yenidənqurma işləri aparılıb. Təxminən 4 il davam edən əsaslı yenidənqurma işləri nəticəsində Bakı Zooloji Parkı ən müasir səviyyəyə çatdırılıb. Yenidənqurmadan sonra Zooloji Parkın kompleksi ziyarətçilər üçün rahat və maraqlı məkana çevrilib, ümumi ərazisi demək olar ki, iki dəfə artırılaraq 4.25 hektara çatdırılıb. Zooparkın sakinləri üçün daha rahat volyerlər, akvaterrarium, kontakt zooparkı, süni göl və hovuzlar, baytarlıq klinikası inşa edilib. Zooparkın əsas məqsədi insanlar üçün canlı aləm, xüsusən də Azərbaycanın nadir faunası haqqında məlumat əldə edə biləcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevrilməsindən ibarətdir. Azərbaycanın ”Qırmızı kitab”ına daxil olan növlərin təbii populyasiyası və reintroduksiyası baxımından, burada heyvanların artırılması üçün münbit şərait yaradılıb. Bakı heyvanat parkında adı ”Qırmızı Kitab”a düşmüş, nəsli kəsilməkdə olan və nadir növlər gətirilib saxlanılır. Bunlara ceyran, Dağıstan turu və nəcib maral, qırmızı canavar kimi heyvanlar daxildir. Heyvanat parkında olan yırtıcı quşların əksəriyyəti - berkut, qarasaqqal, qara kərkəs, ağbaş kərkəs, qartalların bir sıra növləri, meşə quşlarından qırqovullar, su quşlarından qızıl qaz, sultan toyuğu Qırmızı Kitaba daxil edilib, qorunur. Sürünənlərdən Aralıq dəniz tısbağası yalnız Azərbaycanda deyil, bütün dünyada qorunur. Hazırda zooparkdakı heyvan növlərinin ümumi sayı 125, ”Qırmızı kitab”a düşən növlərin sayı isə 22-dir.

Heyvanat parkı nadir və nəsli kəsilməkdə olan heyvan növlərinin canlı genofondunu yaratmaq, onları saxlamaq və artırmaq kimi vacib vəzifəni yerinə yetirir. Bakı heyvanat parkında Azərbaycanın faunasına aid olan adi, nadir və nəsli kəsilməkdə olan heyvanlardan başqa dünyanın müxtəlif iqlim qurşaqları üçün xas olan heyvanların genofondu toplanmışdır.

Bakı heyvanat parkında Afrika aslanı, Amur pələngi, yaquar, bəbir, qırmızı canavar, arktika canavarı, Şotland ponisi, yallı qoyun, Avropa cüyürü, pavian qamadril, tirəndaz, adi iriburun yenot, uçan misir iti, Nil timsahı, Afrika dəvəquşusu, ara tutuquşuları kimi bizim təbiətə xas olmayan heyvanlar saxlanılır.

Qeyd edək ki, zoopark yalnız əyləncə məkanı deyil, həm də elmi-maarifçilik müəssisəsi funksiyasını yerinə yetirir.

***Zümrüd BAYRAMOVA***






# Qarabağın qara bəxti və zəfərə gedən yol

***Zəfər gününün mahiyyətini dərindən başa düşmək üçün Qarabağ probleminin tarixinə nəzər salmaq lazımdır. Bu halda hardan hara gəldiyimizi və Zəfərin qiymətini bilərik. Bu tarix öz başlanğıcını çar I Pyotrun vəsiyyətindən götürür. Vəsiyyətdə deyilir: "Erməniləri Cənubi Qafqaza köçürün və orada xaçpərəst dövlət qurun. Sonra Şimali Qafqazı kiçik xalqlardan təmizləyin. Min il də keçsə İstanbulu alın". Bu direktivə uyğun İran və Türkiyədən on minlərlə erməni Cənubi Qafqaza köçürüldü. Bu yeni bir dövlət qurmaq üçün zəruri olan alt yapı idi. Bu köçürmə hadisələrinin nəticəsində hansı ki, "yersiz gəldi, yerli qaç!" dövrü başladı qarabağlıların sosial-iqtisadi vəziyyəti ilbəil korlandı. Varlılar da kasıblaşdı. Bəy oğlu Qasım bəy Zakir yazırdı: "Bayram oldu heç bilmirəm neyləyəm, bizim evdə axta zoğal da yoxdur".***

## Qarabağ zəfərinin görünən və görünməz tərəfi



YAP Veteranlar Şurasının üzvü, prof.Şahlar Əsgərov

Bu illər ərzində Cənnəti məkan Qarabağda ermənilər tədricən silahlandırılırdı, tarix xeyli saxtalaşdırılırdı, beynəlxalq aləm xeyli çaşdırılırdı. Azərbaycalılar isə tərksilah edilmiş, onların öz torpaqlarını fiziki və ya hüquqi müdafiə etmək imkanları əlindən alınmışdı. Müqavimət göstərənlər üçün Şuşa qəzəmati də tikilmişdi. Obrazla qısaca desək, Cənubi Qafqazda azərbaycanlılar zorla atdan salınmış, ermənilər isə atlandırılmışdı. Azərbaycanlıların əlindən quş tüfəngləri belə alınmışdı. Fəlsəfi dillə desək, 200 il ərzində Qarabağda ermənilər subyekt, azərbaycanlılar isə obyekt halına gətirilmişdi. 2003-cü ildə Vladimir Putin Yerevanda son 300 ildə baş verənləri gülümsəyərək belə dilə gətirdi: "Çox zaman keçmədi-cəmi 300 il. Deyildi və edildi"!

Bu geosiyasi plan həyata keçirildikcə Azərbaycanın ərazisi 114 min kv.km-dən 86,7 min kv.km-ə qədər azalmış və üstəlik I Qarabağ müharibəsində xeyli torpaq işğal olundu. Rus hərbi dəstələri ermənilərə güclü dəstək verirdi. Nəticədə minlərlə şəhid verdik və müharibəni uduzduq. Ancaq Allah böyükdür. Böyük Tofik Fikrət demiş: "Sönməz əbədi, hər kəsin gündüzü vardır!"

### Zəfər Günü

"30 ildə bizi başa düşməyənlərə 30 gündə çox şeyi başa saldıq" - İlham Əliyev.

Zəfər gününə gedən qısa yol 27 sentyabrdan-Anım günündən başlayır. II Qarabağ müharibəsində 2907 şəhid verdik, qazilərimizin sayı da minlərlədir. Şəhidlərimizə Allah rəhmət eləsin. Qazilərimizə cansağlığı arzulayırıq. 27 sentyabr Anım yürüşündə şəhidlərimizin əziz xatirəsi möhtəşəm və ləyaqətlə yad edildi. Bu təkrarsız və sentimental Anım günü həm də qazilərimizin qəhrəmanlıqlarını yüksək səviyyədə ehtiva edirdi.

Anım günündə ən çox eşitdiyimiz sözlər "qəhrəmanlıq" və "vətənpərvərlik" oldu. Sual olunur "qəhrəmanlıq" nədir? Vətənpərvərlik nədir? Bu anlayışların mahiyyətini dərindən anlamaq üçün onları mənafelərin mübarizəsi kontekstində təhlil etmək lazımdır.

İnsan fəaliyyətinin əsas daşıyıcı qüvvəsi mənafedir. Mənafelər iki cür olur: şəxsi və ictimai. Hər bir fərd üçün bu mənafelərin nisbi cəmi vahiddir. İctimai mənafesi yüksək olanların şəxsi mənafesi az olar. Özünü çox sevənlərin ictimai mənafesi az olar. Bu baxımdan, qəhrəman o kəsdir ki, öz şirin canını vətənə (ictimai mənafeyə) qurban verir. II Qarabağ müharibəsində 2907 vətən övladı şəhidlik zirvəsinə yüksəldilər. Onlar vətənin qəhrəman övladlarıdır, bizim isə qürur mənbəyimizdir. Qazilərimizin sırasında da qəhrəmanlıq göstərənlərimiz çoxdur.

Bu cür düşünərək, vətənpərvərliyə də tərif verə bilərik: Öz şəxsi mənafesini ümumi mənafeyə (vətənə, millətə) qurban vermək, vətənpərvərlikdir. Sülh dövründə Vətən yolunda yorulmadan xidmət etmək də vətənpərvərlikdir. Allah şəhidlərimizə qəni-qəni rəhmət eləsin. Kaş ilk şəhidimizin adını və soyadını biləydim. Güman edirəm ki, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanımın əllərində tutduqları şəkillər vətənin ilk qəhrəmanlarındandır.

Bu deyilənlər Zəfərin görünən tərəfləridir. Ancaq Zəfərin görünməyən tərəfləri də var. Onları görmək üçün şanlı qələbəyə fəlsəfi yüksəklikdən baxmaq lazımdır. Təbiətşünaslıqda "formanın saxlanması qanunu" var. Bu qanuna görə cisimlər (canlı və cansız varlıqlar) həmişə formasını qorumağa çalışırlar (Canlı orqanizmə kəsici alətlə yara vurularsa, orqanizm yaranı sağaltmağa cəhd edər, yəni öz əvvəlki formasını almağa çalışar). Torpaq da, sərhədlərimiz də canlı orqanizmdir. Ermənistan Azərbaycana Dağlıq Qarabağ yarasını vurub. Bu yara son 30 ildə sağalmağa can atır ki, öz əvvəlki formasını alsın.

Dəyərli bir kəlamda deyilir: əgər çox ağıllı olarsansa alim olarsan. Əgər çox güclü olarsansa pəhlivan olarsan. Əgər ruhun çox olarsa qəhrəman olarsan. Qəhrəman əsgərlərimiz torpaqdan ruh alaraq Qarabağ uğrunda ona görə igidcəsinə vuruşdular ki, Azərbaycanın Qarabağ yarasını sağaltsınlar. Hərbi həkimlərimizin dediyinə görə, müalicə zamanı əsgərlərimiz narkoz altında olanda belə təkrar-təkrar "Qarabağ" deyirdilər. Əsgərlərimiz öz yaralarını unudub, Qarabağ yarasının hayında idilər. Müqəddəs torpağımızın yarası sağalarsa, ərazimizin forması bərpa olunar.

Azərbaycanın xəritəsinə baxanda diksinirəm. Tut yarpağını qurd yeyən kimi qonşu dövlətlər torpağımızı yeyiblər və yeyirlər. Şükürlər olsun, Dəmir Yumruğun altında Vətənimiz yağılardan təmizləndi. Qisas qiyamətə qalmadı.

Məlumdur ki, yaşamaq üçün yer planetində üç potensial mühit var: torpaq, su və səma. Tarixdən bilirik ki, türklər at belində Şərqdən Qərbə gedərək torpağın potensialından yetərincə istifadə etmişlər. Gəmilər vasitəsi ilə suyun, dənizin potensialından istifadə edərək Konstantinopolu fəth etmişlər. Ancaq son 100 ildə səmanın potensialından istifadə edə bilmədilər. Çünki səmayə nə atla, nə də gəmi ilə getmək mümkün deyil. Səmaya yol ancaq elm və təhsildən keçir. Bu, elm və bilik sahələrində gerilik yüz illərdi ki davam etdi. Şükürlər olsun ki, artıq Bayraktar bizə səmanın potensialından istifadə etməyə imkan verdi. Elm və təhsildə geriliyə son qoyuldu və Türk dünyası da beynəlxalq aləmdə söz sahibinə çevrildi.

Türkiyə Cümhuriyyətinin başçısı R.T.Erdoğan: "Dünya beşdən böyükdür"- deyir. Azərbaycan Prezidenti İlham Əliyev: "Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır"- deyir. Qazaxıstan lideri Nursultan Nazarbayev: "Azərbaycanın Zəfəri Türk dünyası üçün mühüm əhəmiyyət daşıyır"- deyir. Bu tarixi qələbə nəticəsində Azərbaycan iki yüz ildən əvvəlki ictimai-siyasi durumunu bərpa etdi. Azərbaycan yenə də bölgədə gedən hadisə və prosesləri idarə edən, aktiv tərəfə, yəni subyektə çevrildi. Ermənistan iki yüz il öncəki vəziyyətinə qayıtdı. Yəni passiv tərəfə, idarə olunan tərəfə, obyektə çevrildi. Belə nəticəyə gəlmək olar ki, lokal mənada Zəfər günü 2907 şəhidin və minlərlə qazilərin toplam arzusunun cəmidir. Qlobal mənada Türk dünyasının zədələnmiş qamətinin düzəldiyi gündür.

### Qordi düyünü

Azərbaycanın Qordi düyününü müzəffər Ali Baş Komandan silahla açdı və "Qarabağ Azərbaycandır!"- dedi. Bu ifadəni sonra Rusiya prezidenti cənab V.Putin də təkrar etdi: "Beynəlxalq hüquqa görə, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir"- dedi. Bu cümlə çar Rusiyasının 300 il öncə vurduğu düyünün açılması deməkdir. Düyünü vuran onu özü açmalı oldu.

Azərbaycan XXI əsrdə müharibə aparmağın fəlsəfəsini dəyişdi. Birinci Qarabağ müharibəsindən fərqli olaraq, İkinci Qarabağ müharibəsində ordumuz qeyri-standart taktikadan istifadə etdi. Qədimdən müharibəni at belində qılıncla aparırdılar. XX əsrdə müharibələri tankla, topla və təyyarələrlə aparırdılar. XXI əsrdə Azərbaycan müharibəni telefonla, mikrofonla və dronlarla apardı və hərbi fenomen sayıla biləcək taktiki yeniliyə imza atdı. Belə ki, ənənəvi müharibələrdən fərqli olaraq, Ordumuz döyüşdə əsgərləri yox, texnikanı hədəfə aldı. Bunu duyan erməni əsgərləri texniki qurğuları təcili tərk edərək qaçıb canlarını qurtarmağa çalışırdılar. Nəticədə, çoxlu sayda salamat hərbi qənimət götürüldü və düşmən ordusu darmadağın edildi.

Müharibə zamanı hər millət öz milli portretini çəkir. Azərbaycan XXI əsrə layiq özünün portretini çəkdi. Ermənilərin özlərinə çəkdikləri tablo feodal təfəkkürün məhsuludur. Müharibə həm də tarixi TEST-dir. Azərbaycan bu TEST-dən üzüağ çıxdı. Ermənilər tesdən keçə bilmədilər. Ziyalı kəsiminin nümayəndəsi kimi Ordumuz qarşısında baş əyirəm. Zəfərimiz mübarəkdir!- deyirəm.

## Erməni ekspert: "Dəhliz məsələsində güzəştlərə getsək, İranın düşməninə çevriləcəyik"



"Ermənistan böyük regional müharibəyə hazır olmalıdır". "İki sahil" xəbər verir ki, milli təhlükəsizlik və hərbi məsələlər üzrə erməni ekspert, siyasi elmlər doktoru Hraçya Arzumanyan deyib. Arzumanyan bildirib ki, Ermənistan kommunikasiyaları açaraq sülh yox, müharibə qazanır. "Dəhliz məsələsində güzəştlərə getsək, İranın düşməninə çevriləcəyik", - deyə o qeyd edib.

# İtaliyalı jurnalist: "Azərbaycanın Qarabağ üzərində suverenliyini bərpa etməsi qaçılmaz idi"




*Azərbaycanın Qarabağ savaşındakı haqlı Qələbəsinin dünya ictimaiyyəti, əsasən də işğaldan azad olunmuş ərazilərə gedən xarici jurnalistlərin dilindən şərh edilməsi Vətən müharibəsinin ildönümünü qeyd etdiyimiz bu vaxtlarda tam yerinə düşər. Azad olunmuş torpaqlarımıza səfər edən çoxsaylı mətbuat nümayəndələrindən biri də italiyalı politoloq, geosiyasi analitik və jurnalist Emmanuel Pietrobon idi.*

Hibrid müharibələr və postsovet məkanı üzrə ixtisaslaşan E.Pietrobon Turin, Lissabon, Lodz və Sankt-Peterburqda təhsil alaraq, fərdlər üçün məsləhətçiliklə məşğul olur, xüsusən də "Il Giornale/InsideOver", "Osservatorio Globalizzazione", "Vision and Global Trends", "Opinio Juris" kimi müxtəlif beyin mərkəzləri və ixtisaslaşmış jurnallar üçün məqalələr yazır. E.Pietrobon AZƏRTAC-ın xüsusi müxbiri ilə müsahibəsində ölkəmizə səfəri ilə bağlı təəssüratları bölüşüb və onun Vətən müharibəsinin ildönümü ilə bağlı suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.

-İşğaldan azad edilmiş ərazilərimizə səfəriniz zamanı nələrə şahidlik etdiniz və hansı hisslər keçirdiniz?

-Azərbaycana daxil olarkən ilk təəssüratım yalnız azad edilmiş rayonlarda deyil, bütün ölkədə xalqın coşqu ilə Qələbə bayramını qeyd etməsi idi. Əslində, ən diqqətsiz gözlər belə demək olar hər yerdə - vitrinlərdən eyvanlara qədər dalğalanan və ya asılan bayraqları, "Qarabağ Azərbaycandır!" sözləri yazılmış və şəhidlərin şəkli olan lövhələri görməzdən gələ bilməzdi.

Azad edilmiş rayonlara səfərim zamanı insanların üzündə müharibəndən qalib çıxmış və Ermənistanı bu reallıqla barışmağa məcbur etmiş bir xalqın qürurunun şahidi oldum. Təkcə diplomatlar və jurnalistlərlə deyil, sadə insanlarla da söhbət etmək imkanım oldu və hər birinin fikri eyni idi. Azərbaycanın gələcəyində inkişaf və firavanlıq var. Səfər etdiyim Ağdam rayonunda erməni işğalından geriyə qalan yalnız xarabalıq və -dağıntılardır. Bu rayon planetimizin ən çox minalanmış və məhv edilmiş bölgəsi - "Qafqazın Xirosiması"dır.

Rayonda məni ən çox müşayiət edən isə kədər hissi idi. Çünki teatrlar, məscidlər, muzeylər kimi mədəniyyət nümunələrinin dağıdılmasına heç bir bəraət yoxdur - bu, əsassız bir cinayətdir. Mənə aydın oldu ki, Qarabağda söküntülər, partlayışlar və əhalinin köçürülməsi yolu ilə "mədəni soyqırımı" həyata keçirilib.

-Qarabağ müharibəsinin nəticələrini necə qiymətləndirirsiniz?

-Azərbaycan 44 günlük müharibədə qalib gələrək Cənubi Qafqazdakı güc balansını öz xeyrinə dəyişdi, Ermənistanın regional ambisiyaları sıfıra endi. İndi bir məsələ tam dəqiqdir: bərpa prosesi Ermənistan üçün çox çətin olacaq. Çünki müharibədə məğlubiyyət Ermənistana siyasi qeyri-sabitliyə, diplomatik böhrana və tənəzzülə səbəb oldu. Azərbaycan üçün isə bu, beynəlxalq investisiyaların cəlbi, tikinti meydançalarının qurulması və işlərin sürətlənməsi, məşğulluğun artırılması, ən əsası isə azad olunmuş ərazilərin bərpası və yenidən qurulması üçün İtaliya, Türkiyə və İsrail ilə strateji müttəfiqliyin gücləndirilməsi, bu ərazilərə Qətər, Portuqaliya, İspaniya, Baltikyanı ölkələr, Polşa və hətta Albaniya kimi yeni tərəfdaşların gəlməsi deməkdir. Başqa sözlə desək, Qarabağ savaşının başa çatması Cənubi Qafqazda yeni bir dövrün əsasını qoydu.

Hazırda bir sıra fürsətlər yaranıb. Şübhəsiz ki, həm də diqqətdən kənar qalmamalı risklər var: Oxçuçay problemi və çayın Ermənistan tərəfindən çirkləndirilməsi. Lakin uzunmüddətli perspektivdə iqtisadi artımda və enerji modelində nə qədər tez şaxələnmə baş verərsə, bu, bir o qədər yaxşı olar.

-Azərbaycanın haqlı Qələbəsində əsas rol oynayan amillər barədə nə deyə bilərsiniz?

-Azərbaycan Türkiyə və İsrail istehsallı müasir silahlarla müharibə aparırdı. Bu da Azərbaycanın Ermənistanı tam məğlubiyyətə uğratmasına imkan verdi. Nəticədə düşmən işğal etdiyi ərazilərdən çıxarıldı.

Azərbaycanın müharibə təcrübəsi dünyanın müxtəlif yerlərində diqqət mərkəzində oldu. Çünki bu Qələbə geosiyasi əhəmiyyətli hadisənin əsasını təşkil etdi. Deyə bilərəm ki, Cənubi Qafqazda güc balansının türk dünyasının xeyrinə dəyişməsinə yol açdı. Fikrimcə, digər məsələ mənəvi amildir ki, bu da, şübhəsiz, müharibə dövründə olduqca mühüm rol oynadı.

Azərbaycan hələ müharibə başlamazdan xeyli əvvəl qalib gəlmişdi. Qarabağ savaşı Ermənistanın 1990-cı illərin sonlarından başlayan tənəzzülünün pik nöqtəsi oldu. Azərbaycanın Qarabağ üzərində suverenliyini bərpa etməsi qaçılmaz idi.

Əslində, rəsmi Bakıda İrəvanda çatışmayan hər şey var idi - möhkəm və səmərəli faydalı ittifaqlar, güclü və artan iqtisadiyyat, sabit gəlir mənbəyi, müasir hərbi sənaye, həmçinin əlverişli demoqrafiya.

# Əl-Cəzirənin müxbiri: "Vətən müharibəsindəki Zəfərdən sonra Azərbaycan daha da güclənəcək"

*Dünya tarixinin ən önəmli məsələlərindən biri ölkələrin öz müstəqilliyini bəyan etməsi və torpaqlarını yadellilərdən qoruya bilməsidir. Ötən əsrin əvvəllərində müstəqilliyini bərpa edən Azərbaycan ilk illərdə müəyyən çətinliklərlə üzləşdi. Ermənistan Azərbaycana qarşı əsassız ərazi iddiası ilə çıxış etdi. Birinci Qarabağ müharibəsi müəyyən səbəblərdən uğursuzluqla nəticələnsə də, Vətən müharibəsi Azərbaycan xalqının və dövlətinin Qələbəsi ilə başa çatdı. Qardaş Azərbaycan xalqı tarixi torpaqlarını Ermənistanın işğalından azad etmək üçün düz 30 il səbirlə gözlədi.*




Bu müddət ərzində Azərbaycan Ordusunu yenidən qurdu, müasirləşdirdi, gücləndirdi. Nəhayət, 30 illik mübarizənin sonunda haqq, ədalət öz yerini tapdı. Otuz ilə yaxın işğal altında qalan torpaqlar Azərbaycan xalqının və dövlətinin əzmi, qüdrəti və gücü sayəsində azad edildi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Əl-Cəzirə Media Şəbəkəsinin İstanbul şöbəsinin əməkdaşı Yılmaz Akınçı deyib.

Türkiyəli jurnalist diqqətə çatdırıb ki, Azərbaycan Qarabağı öz gücünə azad etməklə ərazi bütövlüyünə qovuşdu. BMT-nin qətnamələrini özü yerinə yetirən Azərbaycan bütün dünyaya ədalətin mövcud olduğunu nümayiş etdirdi.

"Vətən torpağının hər qarışı doğmadır, əzizdir. Vətən sevgisi yoxdursa, üstündə gəzdiyin torpağın qədrini bilməzsən. Azərbaycan xalqı heç vaxt işğalla barışmadı və öz torpaqlarının azadlığı uğrunda çox sayda şəhid verdi. Şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım Günündə paytaxt Bakıda yürüş təşkil edildi. Xalq öz qəhrəmanlarını heç vaxt unutmayacaq", - deyə jurnalist əlavə edib.

Yılmaz Akınçı vurğulayıb ki, Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Qələbəyə qədər bütün cəbhələrdə əzmlə mübarizə apardı. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həm diplomatik, həm hərbi və həm də informasiya sahəsində mühüm işlər görüldü.

Bu günlərdə Azərbaycanın Vətən müharibəsində Qələbəsinin birinci ildönümünün coşqusunu yaşadığını deyən jurnalist vurğulayıb ki, işğaldan azad edilən torpaqlarda nəhəng tikinti və quruculuq işlərinin aparıldığının şahidi olub. Bildirib ki, indi əsas diqqət insanların tezliklə öz evlərinə qayıda bilməsi və firavan yaşaması üçün şəraitin yaradılmasıdır. Yılmaz Akınçı əminliklə vurğulayıb ki, qardaş Azərbaycan bundan sonra daha da güclənəcək, təhdid və təxribatlara layiqli cavab verəcəkdir.

# "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması nəhəng işlərin zirvəsi hesab oluna bilər"

"Prezident İlham Əliyevin işğaldan azad olunmuş Cəbrayıl rayonuna 4 oktyabr səfəri zamanı Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası və yenidənqurulmasının sürətlə həyata keçirilməsinin şahidi olduq. Quruculuq işlərinin hazırkı miqyası və sürəti ölkəmizin iqtisadi gücünü sərgiləyir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova deyib.Onun sözlərinə görə, 30 illik işğal dövrü ərzində ermənilər tərəfindən viran qoyulmuş, yerlə yeksan edilmiş ərazilərdə son bir ildə aparılan quruculuq işləri heyranlıq doğurur: "Keyfiyyət baxımından yeni yanaşma irimiqyaslı müasir infrastruktur layihələri nəinki Azərbaycan, bütün region üçün iqtisadi dividentlər vəd edir. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan bu möhtəşəm quruculuq işlərini əsasən öz iqtisadi potensialı və gücü hesabına həyata keçirir. Qeyd edək ki, Cəbrayıl erməni işğalından ilk azad olunmuş rayonumuzdur. Cəbrayılın ardınca Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan ordusu Zəngilan, Qubadlı və Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdi, daha sonra Laçın dəhlizi Azərbaycanın nəzarətinə götürüldü".Deputat qeyd edib ki, ölkəmizin cənub sərhədini qoruyan Cəbrayıl rayonun bərpası həm də strateji önəm daşıyır: "Ərazisi 1050 kv.kilometr olan rayonda hazırda elektrik təchizatı ilə bağlı işlər demək olar ki, yekunlaşıb, su elektrik stansiyalarının qurulması işləri də sürətlə davam edir. Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfəri zamanı şəhərin Baş Planı ictimaiyyətə təqdim olundu. Artıq birinci yaşayış binasının təməli qoyulub, eləcə də xəstəxana, məktəb, iş yerləri olacaq. Hazırda 4-6 zolaqlı yol çəkilir, bu, Cəbrayıla gələn vətəndaşlar üçün rahatlıq deməkdir, eləcə də buradan keçən Zəngəzur dəhlizindən istifadə edə biləcəklər".S.Mikayılova vurğulayıb ki, "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması isə burada başlanılan nəhəng işlərin zirvəsi hesab oluna bilər: "200 hektarı əhatə edən yeni iqtisadi zonaya artıq ilkin maliyyə vəsaiti ayrılıb, ilkin investorlar da müəyyən olunub. Xüsusilə Türkiyə və Rusiya şirkətləri burada investisiya layihələrində fəal iştirak edirlər. Cəbrayıl rayonu zəngin təbii ehtiyatlara malikdir və bu, yeni iqtisadi sektorlarının yaradılması üçün zəmin yaradır. Azad olunmuş ərazilərin sürətli bərpa olunaraq ölkə iqtisadiyyatına inteqrasiyası Azərbaycanın əsas hədəflərindən biri kimi müəyyənləşir və bu, ölkə iqtisadiyyatı üçün əlavə dəyər yaradacaq. İnfrastruktur layihələrinin miqyaslı icrası bu məqsədə xidmət edir və bir zamanlar bu yerləri tərk etməyə məcbur qalmış vətəndaşlarımızın geri dönüb burada normal həyata başlamalarını təmin edəcək".



***Neft dünyada əsas amildir. Bu mənada, neft ölkəsi olan və Bakı-Tbilisi-Ceyhan kimi qlobal bir layihəni reallaşdıran Azərbaycan neft amilindən təzyiq və təsir vasitəsi kimi istifadə etməklə istənilən milli maraqlarını həll edə bilər. Ancaq görünən ondan ibarətdir ki, Azərbaycan neft amilindən siyasi məqsədlər üçün istifadə etməyib. Öz gücünə arxalanmaqla problemləri-ni, o cümlədən, 30 il erməni işğalı altında olmuş torpaqlarını 44 günlük Vətən müharibəsində həll etdi. Artıq münaqişə bitib, Azərbaycan ərazi bütövlüyünü təmin edib. Nəzərə almaq lazımdır ki, yalnız ABŞ neftə olan ehtiyacının 55 faizini idxal vasitəsilə, 45 faizini isə özü ödəyir. ABŞ ildə 680 milyard ton neft alır. Özü isə ildə cəmi 1 milyard ton neft istehsal edir. Ümumi rəy ondan ibarətdir ki, ABŞ dünya neftinin 26 faizinin alıcısıdır.***



# Erməni terroru bəşəri bəlaya çevrilir

Təhlil

Ona görə də, neftlə bağlı ərazilər, xüsusilə də, dünya neft ehtiyatlarının 62 faizinin cəmləndiyi Fars körfəzi ABŞ üçün həyati əhəmiyyət daşıyan zonadır. Bu baxımdan, Azərbaycan ABŞ-ın maraqları daxilindədir. Amma etiraf olunmalı bir həqiqət var ki, ABŞ üçün əsas hədəf maraqlardır. Onlar açıq şəkildə qeyd edirlər ki, bizim maraqlarımız bütün dünyanı əhatə edir. Onu da əlavə edirlər ki, bizim həm həyati maraqları-






mız, həm də ümumi maraqlarımız var. O yerdə ki, bizim həyati maraqlarımız var, o yerlə bağlı bəyanatlar verir, çıxışlar edir və müəyyən hadisələri pisləyirik. Bunlar effekt vermədikdə, güc tətbiq edirik. Ümumi maraqlarımız olan yerdə isə biz çıxış edirik, bəyanat veririk və hadisələri pisləyirik. Amma güc tətbiq etmirik. Onlar etiraf edirlər ki, NATO-nun Şərqə doğru genişləndirilməsi, Balkanlar və Fars körfəzi həyati maraqları ilə bağlı olan zonalardır.

1999-cu il mart ayının 24-dən iyun ayının 10-a qədər 78 gün ABŞ Yuqoslaviyanı gecə-gündüz bombaladı. Halbuki bu bombardmanla bağlı BMT Təhlükəsizlik Şurasının qətnaməsi olmayıb. Çünki Balkanlar Avropanın mərkəzində olsa da, ABŞ-ın həyati maraqları ilə bağlı olan zonaya daxil idi. Fars körfəzi zonasında Səddam Hüseynə qarşı ABŞ BMT Təhlükəsizlik Şurasının qətnaməsi olmadan hərbi əməliyyatlar həyata keçirdi. Yalnız 2011-ci il dekabrın 18-də qan gölünə dönmüş İraqdan qoşunlarını çıxartdı. Bu mənada, demək olar ki, ABŞ həyati maraqlar naminə hər cür addım atır, ümumi maraqlar olan yerdə isə yalnız bəyanatlar verməklə kifayətlənir. Deməli, Dağlıq Qarabağ, ümumilikdə isə, region ABŞ üçün ümumi maraqlar zonasına daxildir. Bəzən bu tip məsələlərin həlli üçün ABŞ Rusiya ilə kompromisə gəlməyi vacib hesab edir. Rusiya ABŞ-a "yox" deyəndə, problem qəlizləşir. Rusiya hesab edir ki, keçmiş postsovet respublikaları onun təsiri altında olmalıdır. ABŞ da prinsip etibarı ilə Rusiyanın apardığı bölgü əleyhinə deyil.




2008-ci ilin avqust ayında Gürcüstanın Rusiya hərbi kontingenti tərəfindən işğal edilməsi göstərdi ki, ABŞ Moskvanın maraqlarına qarşı, xüsusilə də, apardığı bölgüyə qarşı deyil. Məhz Gürcüstan olaylarından sonra Qırğızıstan "Manas" hərbi bazasını ABŞ-ın üzünə bağlamaq barədə qərar qəbul etdi. Səbəbini də onunla izah edir ki, Gürcüstan xristian dövlətidir. Xristian dünyası, ABŞ başda olmaqla Gürcüstana "dəstəyinin" hansı səviyyədə olduğunu göstərdi. Avropa Birliyi avqust hadisələrindən sonra 2008-ci il sentyabrın 1-də Gürcüstana qarşı güc tətbiq etdiyinə görə, Rusiyanın məsələsinə baxmalı idi. Gündəmdə Rusiyaya qarşı iki sanksiya - Polşa və İtaliya variantları müzakirə olunmalı idi. Nəticədə, heç bir sanksiya olmadı. NATO Rusiya ilə münasibətləri dondursa da, sonradan qərarından imtina etdi. Məhz bu və digər amillərdən nəticə çıxaran Qırğızıstan ABŞ-ın Manas hərbi bazasında yerləşməsindən imtina etdi. Hətta Manas hərbi bazasına görə, ABŞ illik 80 milyonluq icarə razılaşmasını 150 milyon dollara qaldırmağa hazır olduğunu bəyan etdi. Bu da Qırğızıstanı razı salmadı. Sonradan Rusiya Qırğızıstana 2 milyard dollar kredit ayırdı. Rusiya Xarici İşlər Nazirliyi 150 milyon dollar əvəzində, Qırğızıstana 2 milyard dollar vəsaitin ayrılmasını sırf təsadüf hesab etdiyini bəyan etmişdi. Amma hər kəsə bəllidir ki, siyasətdə təsadüflər olmur. Bir sözlə, Rusiya beynəlxalq aləmdə hesablaşmalı dövlətlərdəndir. Necə ki, ABŞ və Şərqi Avropa ölkələri Rusiya ilə hesablaşırlar. Bu mənada, "Deyl Korneger" Fondunun ekspertlərinin gəldikləri nəticələr maraq doğurmaya bilməz. Ekspertlərə görə, Rusiyaya münasibətdə üç şeyə təəccüblənməmək mümkün deyil. Birincisi, ona görə ki, Sovet İttifaqının dağılacağı proqnozlaşdırılırdı, amma ona təəccübləndik ki, bu dağılma gözlənilləndən tez baş verdi. Təxminən 22 milyon kv. km ərazidən 5 milyon kv.km ərazi ayrıldı. Amma onun yerində 17 milyon kv.km ərazisi olan və ABŞ-dan ( bu ölkənin ərazisi 9,4 milyon kv. km-dir ) iki dəfə böyük olan Rusiya dövləti qaldı. Belə bir dövlət beynəlxalq siyasətdə özünü tarazlı aparmalı idi. Amma 1990-cı ilin əvvəlində miskin günə düşdü. Hətta beynəlxalq danışıqlarda Rusiyanın xarici işlər naziri Kozırevə "Mister yest" ləqəbi də qoymuşdular. Yəni nə desə başı, əlləri və dili ilə təsdiqləyir. Amma SSRİ-nin xarici işlər naziri Qromıkonun ləqəbi "Mister no" idi. Yəni onu razı salmaq çox çətin idi. Təəccübləndik ki, belə nəhəng dövlətin varisi miskin vəziyyətə düşə bilərmiş. Bu, bizi təəccübləndirirdi. Üçüncüsü isə, biz bilirdik ki, Rusiyanın böyük potensialı var, ərazisi var, təbii ehtiyatları var. Bu dövlət özünə gələcək. Bizi təəccübləndirən isə Rusiyanın proqnozlaşdırılandan daha tez özünə gəlməsi və ambisiyalarla çıxış etməsi oldu. 2000-ci ildə Vladimir Putin hakimiyyətə gəldikdən sonra Rusiya dünyada söz sahibi olmağa başladı. Əgər 2000-ci ilə qədər Rusiyanın 150 milyard dollarlıq xarici borcu var idisə, Putinin hakimiyyətə gəlişi ilə bu borclar silinməyə başladı. Bu, həm də onunla bağlı oldu ki, dünya bazarında neftin qiymətinin kəskin bahalaşması Rusiyaya böyük həcmli gəlirlərin daxil olmasına səbəb oldu. Putinin bir qədər praqmatik siyasət aparması Rusiyanı sürətlə ayağa qaldırdı. Məhz bundan sonra ambisiyalar özünü göstərməyə başladı. "Hətta Rusiya postsovet ölkələrini yaxın xarici hesab edirdi" deyə Fondun ekspertləri təəccüblərinin nədən ibarət olduqlarını ifadə ediblər. Bu və digər faktlara əsasən demək olar ki, dünyanı bəzən miskin durumu, bəzən isə iddialı ambisiyaları ilə təəccübləndirən Rusiya zahirən özünü Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı olduğunu göstərsə də, reallıqda problemin qalmasında maraqlı olduğunu sezdirməklə təəccübləndirməkdədir. Amma siyasətdə əbədi dostlar olmadığı kimi, əbədi düşmənlər də daimi olmurlar. Siyasi maraqlar, iddialı ambisiyalar dostları düşmənə, düşməni isə dostlara çevirə bilir. Hazırkı dünya düzənində baş verən siyasi prosesləri nəzərə alsaq, Rusiya istəsə də, istəməsə də Azərbaycanın maraqlarına tabe olan dövlətə çevriləcəyi gözlənilir.

Xatırlatmaq lazımdır ki, soyuq müharibə dövründə heç kəsin ağlına gəlmirdi ki, iki qarşıduran tərəf olan NATO və SSRİ sonradan bir-birinə dost əli uzadacaqlar.




# Erməni terroru bəşəri bəlaya çevrilir





Hətta SSRİ-nin təsiri altında olmuş (Varşava müqaviləsi ölkələri) dövlətlər NATO-nun üzvü olacaqlar. Hazırda Rusiya ilə NATO-nun üzvü olan Türkiyə arasında sıx münasibətlər mövcuddur. Hər iki dövlət arasında olan iqtisadi əlaqələr ekspertləri, sözün əsl mənasında, təəccübləndirir. Çünki ABŞ ilə Türkiyə strateji müttəfiq olsalar da, onların arasında ticari-iqtisadi dövriyyə cəmi 15 milyard dollardır. ABŞ-la Rusiya bir-birinə strateji rəqib kimi görünsələr də, onların iqtisadi əməkdaşlıq dövriyyələrinin həddi 24 milyard dollar miqdarındadır. Türkiyə-Rusiya ticari dövriyyəsi hazırda 40 milyard dollardır, amma onun 100 milyard dollara çatdırılması barədə razılaşma əldə olunub. Rusiya ilə Ermənistan arasında iqtisadi dövriyyə isə cəmi 750 milyon dollar təşkil edir. Dünyanı həm də iqtisadi maraqların idarə etdiyini nəzərə alsaq, Rusiya 100 milyard dollarlıq ticari-iqtisadi maraqlarına görə, Ermənistanı bir "peşka" kimi Türkiyəyə qurban verə bilər. Eyni zamanda, dünyada qəbul olunan bir prinsip var: güclü hər zaman haqlıdır. Zəiflərin meydanda yer istəməsi heç də arzuolunan deyil. Azərbaycan regionun lider dövlətidir. Sabah isə Azərbaycan regionun fövqəldövlətinə çevrilə bilər. Necə ki, Türkiyəni Yaxın və Orta Şərqin fövqəldövləti hesab edirlər. Türkiyənin razılıq verməadiyi heç bir problem həllini tapa bilmir. Artıq bəzi Qərb ekspertləri Türkiyənin fəaliyyətini populizm kimi dəyərləndirirlər. Daha doğrusu, Türkiyənin iddialarını Osmanlı imperiyasını yenidən bərpa etmək iddiaları kimi qiymətləndirirlər. Bu gün Cənubi Qafqaz iqtisadiyyatının 83 faizi Azərbaycanın payına düşür. Sabah hərbi qüdrəti də Cənubi Qafqaz respublikalarını bir neçə dəfə üstələyə bilər. Artıq Azərbaycan buna doğru da gedir.

Yalnız Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən artıqdır. Bu fərq müqayisəolunmaz səviyyəyə çata bilər. Yeni Azərbaycan neft ölkələri olan Orta Şərq dövlətləri ilə müqayisə oluna bilər. Bu reallıqlar fonunda Ermənistana dədəlik, bəzən isə bacılıq edən dövlətlər rəsmi Yerevanı başa sala bilərlər ki, Qarabağı işğaldan azad edən Azərbaycan inkişafının elə bir pik zirvəsindədir ki, artıq onun qarşısını heç bir qüvvə ala bilməz. Yeni ziyanın yarısından qayıtmaq Ermənistan üçün xeyirli olar. Hazırkı vəziyyətdə Azərbaycan Ermənistandan bütün sahələr üzrə qat-qat güclüdür.

## "BMT DEBATLAR ÜÇÜN MARAQLI KLUBDUR"

Etiraf olunmalıdır ki, bu gün dünyada beynəlxalq hüququn gücü deyil, gücün hüquqi işləyir. Bu gün beynəlxalq hüququn gücü işləsəydi, heç şübhəsiz, 1948-ci ildə qəbul olunan Cenevrə konvensiyasına əməl oluna, BMT Təhlükəsizlik Şurasının qətnamələri də Ermənistan tərəfdən icra edilərdi. Necə ola bilər ki, BMT Təhlükəsizlik Şurası 2011-ci ilin sentyabrında Liviya ilə bağlı tez-tələsik qətnamə qəbul edir və iki saat sonra onun icrasına başlayır. Amma Azərbaycanın haqq işi uzun illər idi ki, bərpa olunmurdu. Bundan o nəticəni çıxarmaq olar ki, dünyanı maraqlar idarə edir. Bir halda qanunlar işləyir, başqa bir halda isə bu qanunların işləməsi üçün mexanizm yoxdur. Bu isə nəticə etibarilə beynəlxalq hüququn özünü, xüsusilə də BMT kimi nüfuzlu təşkilatı gözdən salır. Maraqlısı da odur ki, beynəlxalq hüququ yaradanlar özləri də onu pozurlar. 1945-ci il oktyabr ayının 24-dən fəaliyyətə başlayan və qərargahı Nyu-York şəhərində yerləşən BMT nizamnaməsini ən çox pozan ABŞ-dır. BMT nizamnaməsini tərtib edərkən ABŞ orada qeyd edib ki, sülh və təhlükəsizlik məsələlərinə cavabdehdir. Ancaq yalnız ABŞ-ın sanksiyası ilə bu və digər ölkəyə qarşı müharibəyə başlamaq olar, başqa cür, mümkün deyil. Sadəcə, BMT nizamnaməsinin 51 və 25-ci maddələri var ki, burada təcavüzə məruz qalan dövlət BMT-nin qərarını gözləmədən hərbi əməliyyatlara başlaya bilər. Amma proseslər göstərir ki, ABŞ üçün bu prinsiplər yaddır. Yuxarıda qeyd etdiyimiz kimi, 1999-cu ildə ABŞ Slobodan Miloşeviçi devirmək üçün 78 gün Təhlükəsizlik Şurasının qətnaməsini gözləmədən Yuqoslaviyanı bombaladı. Fikir verin: BMT-ni yaradan, nizamnaməsini tərtib edən ABŞ onun prinsiplərini pozanda da birinci dövlətdir. 2003-cü ildə BMT Təhlükəsizlik Şurası üzvlərinin 9 səsini əldə edilməli idi ki, ABŞ İraqa qarşı müharibəyə başlasın. Təbii ki, dövlətlər veto hüququndan istifadə etməməli idilər. Rusiya və Çinin veto hüququndan istifadə edəcəklərini görən ABŞ qətnaməni gündəlikdən çıxararaq İraqa qarşı hərbi əməliyyatlara başladı. Sanki BMT deyilən qurum ABŞ üçün yox imiş. Hətta Corc Buş BMT-nin fəaliyyətini ləğv qoyurmuş. "BMT debatlar üçün maraqlı klubdur" deyə C.Buş bildirmişdir. Yəni ABŞ prezidenti dünya üçün nüfuzlu qurum olan BMT-ni adi klub səviyyəsinə endirir. ABŞ bu tip qərarları ilə beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozur. Bu baxımdan, Ermənistan kimi bərbad dövlətin terrorçu qrupunun üzvləri də dünyada beynəlxalq hüququn gücsüz olduğunu bildiklərindən həyasızcasına, total qaydada Cenevrə Konvensiyasını da, BMT qətnamələrini də pozurlar. Cenevrə Konvensiyası o zaman işləyəcək ki, beynəlxalq güclər konvensiyanın işləməsində maraqlı olsunlar. Əgər dünyanın aparıcı dövlətləri siyasi qərar qəbul etsələr ki, Azərbaycan torpaqlarını işğal etdiyinə görə, Ermənistan cəzalandırılmalıdır, o zaman Cenevrə Konvensiyası, eləcə də, digər beynəlxalq qərarlar işə düşmüş olacaqlar. Hətta iddialar irəli sürüləcək ki, 1993-cü ildən Ermənistana vaxt verilib, işğal edilən torpaqların boşaldılması tələb olunub, amma Ermənistan verilən vaxtdan nəticə çıxarmayıb. Beləliklə, Ermənistanı cəzalandırmaq üçün hərbi əməliyyatlara başlanılacaq. Müharibə gedən ərazilərdə qadınların və uşaqların qorunması ilə bağlı 1948-ci ildə qəbul edilən Cenevrə konsepsiyası mövcuddur. Döyüşlər qadın və uşaqların olduğu ərazidən uzaqda keçirilməlidir. Dinc şəraitdə ermənilər azərbaycanlı mülki şəxsləri də qətlə yetirmişdir. Azərbaycan son zamanlar bu məsələlərlə bağlı kütləvi şəkildə öz hüquqlarını qoruduğuna görə, ermənilər bir qədər çətinə düşüblər. Bu gün ölkəmizin uğuru ondadır ki, Azərbaycana Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyev kimi diplomatiyanı dərindən bilən bir şəxs rəhbərlik edir. Ölkə başçısı beynəlxalq proseslərdən kifayət qədər məlumatı olan bir şəxsdir. Əgər bu gün respublikamızı siyasi səriştəsi olmayan bir şəxs idarə etsəydi, Qarabağ problemi həll edilməmiş qalardı. Bəlkə də, beynəlxalq təzyiqlərə duruş gətirməyib Qarabağdan imtina edilərdi. Ancaq böyük sərkərdəlik məharətinə malik, müdrik siyasətçi, Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın milli maraqlarını hər şeydən üstün tutmaqla Qarabağ problemini əbədi həll etdi. Bu gün Qarabağımız düşmən əsarətindən azad edilib və rahat nəfəs alır. Yaxın vaxtlarda isə bütün keçmiş qaçqın və məcburu köçkünlərimiz öz doğma yurd-yuvalarına qayıdıb, sakit yaşayışlarını davam etdirəcəklər.

**İ.ƏLİYEV**

# Qurtuluşa gedən yolun ilk pilləsi

***Xalqımızın təfəkküründə on illərlə formalaşmış və qətiləşmiş belə bir fikir var ki, cəmiyyətimizin qarşılaşdığı çətin problemlərin həllini yalnız Heydər Əliyev bacarar. Çünki hər kəsə bəlli idi ki, O, nadir keyfiyyətlərə malik uzaqgörən siyasətçi və təcrübəli dövlət xadimi kimi xalqımız üçün ağır, taleyüklü problemlərin öhdəsindən dəfələrlə layiqincə gəlmişdi. Ötən əsrin 90-cı illərinin əvvəlində də ölkəmiz çox keşməkeşli dövrünü yaşayırdı.***

Bir tərəfdən torpaqlarımızın bir qismi erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş, digər tərəfdən bunun cəmiyyətdə yaratdığı süstlük, iqtisadi-siyasi böhran, vətəndaş qarşıdurması, siyasi qüvvələr arasında hökm sürən hərc-mərclik, qeyri-peşəkar idarəetmə Azərbaycanı çıxılmaz vəziyyətə salmışdı. Yenicə qazanılan müstəqillik itirilmək təhlükəsi ilə üz-üzə idi.

Hadisələri düzgün qiymətləndirə bilməyən həmin dövrün iqtidarı xalq qarşısında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Heydər Əliyevin simasında görürdü.1993-cü il oktyabrın 3-nə təyin edilmiş prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi oldu. Xalq böyük səs çoxluğu ilə öz seçimini etdi və ulu öndər Heydər Əliyevi Prezident seçdi. Həmin seçimlə bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu. Ümummilli lider 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı. Ulu öndər Heydər Əliyevin yürütdüyü siyasət, atdığı addımlar da gələcəyə hesablanırdı. O, müstəqil Azərbaycan dövlətinə rəhbərlik missiyasını üzərinə götürəndə də sosial-iqtisadi problemlər məngənəsində boğulan, vətəndaş müharibəsi, parçalanma təhlükəsinin bircə addımlığına gəlib çatmış, insanlarının sabaha heç bir ümidi qalmamış, müharibə şəraitində yaşayan və mənfur Ermənistan tərəfindən torpaqlarının xeyli hissəsi işğal olunmuş bir ölkəni təhvil almışdı. Belə çətin və həlledici dövrdə ölkənin və xalqın gələcəyinə görə məsuliyyəti üzərinə götürmək bir dövlət xadimi üçün həddən artıq riskli qərar idi. Amma Heydər Əliyev bunu etməyə bilməzdi, çünki onu xalq çağırırdı. Azərbaycanın üzləşdiyi bəlalardan qurtuluşu üçün yeganə xilas yolunu onun qətiyyətində, siyasi təcrübəsində, idarəçilik bacarığında görürdü. Heydər Əliyev Azərbaycanın taleyi naminə bu missiyanı üzərinə götürdü və xalqın dəstəyinin verdiyi güclə ölkəni qısa müddətdə ağır sınaqlardan çıxararaq inkişaf yoluna yönləndirdi.

Dahi şəxsiyyət Heydər Əliyev deyirdi: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması ondan da çətindir". O, bu çətinliyi hər kəsdən daha aydın görür və dərk edirdi. Dünyanın siyasi xəritəsindən silinmək üzrə olan Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması üçün bütün imkanlardan istifadə etdi. Ümummilli lider, ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, ölkədəki qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub-saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Onun prezident seçilməsi ilə ölkəmiz özünün yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövlət quruculuğu, iqtisadi, sosial və mədəni həyatda demokratiyanın, qanunvericiliyin formalaşması üçün geniş imkanlar yarandı. Müstəqillik illərində Azərbaycan dünyanın nüfuzlu beynəlxalq təşkilatlarına üzv qəbul edildi, faydalı əməkdaşlıqlar quruldu. Həyata keçirilən regional və qlobal layihələr Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı. Müxtəlif sahələrdə baş verən yeniliklər, xarici dövlətlərlə yaradılan dostluq və əməkdaşlıq münasibətləri, iqtisadi göstəricilər müstəqillik illərinin uğurlarıdır.

Azərbaycanın ən çətin anlarında Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında siperə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi. Heydər Əliyev qlobal miqyasda təhlillər aparmağı bacaran nəhəng siyasətçi idi. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diqtə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi. Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. O, analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi. Heydər Əliyev parlaq, güclü, koloritli bir şəxsiyyət idi.

Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşıya qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir gücündə idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və başqa bu kimi cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi. İstedad və iradə, özünə qarşı tələbkarlıq və mütəşəkkillik, peyğəmbər uzaqgörənliyi və sərkərdə şücaəti bu böyük şəxsiyyətin ali keyfiyyətləri idi.



**1993-cü il 3 oktyabr tarixində Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi**

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətini yaratmışdır və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir. O, dünya siyasətinə təsir etmək gücündə olan və qlobal miqyasda təhlillər aparmağı bacaran siyasətçi idi. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli liderimiz Heydər Əliyevin xidmətləridir.

İstənilən demokratik cəmiyyətin əsasını insan hüquq və azadlıqlarının tanınması və onların səmərəli təminatı mexanizmlərinin mövcudluğu təşkil edir. Cəmiyyətin inkişafı, onun maddi və mənəvi çiçəklənməsi, vətəndaş sülhü yalnız insanın ali dəyər, onun hüquq və azadlıqlarının təmin edilməsinin isə dövlətin başlıca vəzifəsi və əsas təyinatı olaraq qəbul edildiyi şəraitdə mümkündür. Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən biri siyasi-hüquqi sistemin kökündən demokratikləşmə istiqamətində əsaslı surətdə dəyişdirilməsindən ibarət olmuş, həm də bu proses mahiyyət etibarı ilə dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə etmişdir. Şübhəsiz ki, bunların əsasında dünya şöhrətli siyasi xadim, ümummilli liderimiz Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası durur. Məhz Konstitusiya ölkədəki köklü dəyişikliklərə müsbət təsir göstərmiş, hüquqi dövlət quruculuğu prosesinin əsas istiqamətləri-ni müəyyən etmişdir.

1995-ci il Konstitusiyasının milli hüquq sisteminə gətirdiyi mühüm yeniliklərdən biri də Əsas Qanunun ehtiva etdiyi dəyərlərin müdafiəsinin və dövlətin hüquqa bağlılığının təmin edilməsinin mühüm vasitələrindən biri kimi Konstitusiya Məhkəməsinin yaradılması olmuşdur. Konstitusiya Məhkəməsi bir qayda olaraq, cəmiyyətdə və dövlətdə sabitliyin başlıca amili kimi qəbul olunan bir təsisatdır. Demokratiya şəraitində bir sıra kəskin hüquqi problemlər məhz bu orqan sayəsində Konstitusiya çərçivəsində və əsasında həll edilə bilər. Konstitusiya Məhkəməsi milli məhkəmə orqanı kimi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə, ölkə Konstitusiyasına uyğun olaraq Konstitusiya məhkəmə icraatı vasitəsilə insan və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini həyata keçirir. Konstitusiya Məhkəməsinin fəaliyyətinin əhəmiyyəti ilə bağlı hüquq ədəbiyyatında belə bir fikir də vurğulanır ki, dövlətin bütöv hüquq sisteminin gələcək inkişaf istiqamətləri konstitusion yurisdiksiya aktlarında müəyyən olunmuş hüquqi mövqelərdən asılıdır. Konstitusiya nəzarəti (Konstitusiya ədalət mühakiməsi) vasitəsilə qanunvericilik sistemində olan kolliziyalar aradan qaldırılır, hüququn tətbiqi praktikasında ahəngdar, məntiqi inkişaf təmin olunur, müvafiq subyektlər arasındakı konfliktlərin qarşısı alınır.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdığı ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ulu öndər, ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı.

Həmin dövrdə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri də elə, məhz ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır. Ümummilli lider Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. Ulu Öndər Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində beynəlxalq təşkilatlarla bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas dayaqlarından birinə çevrildi. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursunun mühüm prioritetlərindən birini Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil etmişdir. Məhz Onun gərgin əməyi və ardıcıl səyləri nəticəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmış və məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Ümummilli lider Heydər Əliyev bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail olmuşdur.

Ümummilli lider Heydər Əliyev özündən sonrakı dövr üçün də liderlik məktəbini yaratdı Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi müddətdə sübut etdi ki, o, Heydər Əliyev məktəbini yüksək səviyyədə mənimsəmiş və yeni tarixi epoxanın irəli sürdüyü çağırışları qabaqlamış, mühüm strateji zəkaya və praktiki səmərəli fəaliyyət metodlarına malik olan dünya miqyasında yeni tipli liderdir. Azərbaycan ordusunun mərd, igid, mətanətli oğullarının Respublika Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsinin nəticəsi olaraq 44 günlük Vətən müharibəsində əzəli torpaqlarımızı azad etməsi bunun ən bariz nümunəsidir. Biz şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirik. Ulu öndərimizin vəsiyyəti olan Dağlıq Qarabağ münaqişəsi məsələsi qızıl hərflərlə yeni tarix yazan Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz tərəfindən uğurla həll edildi.

***Könül Məmmədova***
***YAP Şamaxı rayon təşkilatının Şura üzvü***
***Tərəqqi medallı***

# Şəhidlərimiz hər zaman bizim qəlbimizdə və yaddaşımızda əbədi yaşayacaqlar!




## Zaqatala rayonunda Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb

Zaqatalada Vətən müharibəsi şəhidlərinin anım mərasimləri davam edir. YAP Zaqatala rayon təşkilatının fəalları, rayon icra hakimiyyətinin rəhbərliyi, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon Aşağı Tala kənd sakini baş leytenant Valeh Vahid oğlu Bədəlovun və Zaqatala rayon Aşağı Çardaqlar kənd sakini şəhid Zöhrab İlham oğlu Mehdiyevin ildönümü ilə əlaqədar məzarlarını ziyarət edib, məzarları üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini böyük ehtiramla yad ediblər. Daha sonra Şəhid ailələrini ziyarət edib, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhidlərimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnun olduqlarını ifadə ediblər.

***ZÜMRÜD BAYRAMOVA***

# YAP Şamaxı rayon təşkilatının aparat işçiləri şəhidin il mərasimində iştirak ediblər



YAP Şamaxı rayon təşkilatının aparat işçiləri İkinci Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış Orucov Mirzəcan Araz oğlunun şəhid olmasının ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak ediblər. Həmçinin, şəhidin məzarı ziyarət edilərək önünə gül dəstələri düzülüb, eyni zamanda, şəhidin məzarı üzərində səliqə-səhman işləri görülüb və ruhlarına dualar oxunub. Sonra YAP Şamaxı rayon təşkilatının əməkdaşları şəhidin evində olmuş, söhbət əsnasında Mirzəcan Orucovun Suqovşan qəsəbəsinin azad olunması uğrunda xüsusi fədakar döyüşlərindən bəhs olunub. Qəhrəmanımız Xocəvənd rayonunda gedən döyüşlərdə şəhid olmuşdur.

Mərasimdə çıxış edən YAP Şamaxı rayon təşkilatının sədr əvəzi Bəxtiyar Abbasov qeyd etdi ki, bu gün ölkə rəhbərliyi tərəfindən yürüdülən humanitar siyasət şəhidlərimizə, İkinci Vətən Müharibəsi qəhrəmanlarına, qazi və şəhid ailələrinə sonsuz ehtiramın nümunəsidir. Şəhidlərimiz hər zaman bizim qəlbimizdə və milli yaddaşımızda əbədi yaşayacaqlar. Ziyarət zamanı şəhidin anası Südabə Orucova ölkə başçısı cənab İlham Əliyev və birinci vitse prezident Mehriban xanım Əliyevaya şəhid ailələrinə daim qayğı və diqqətə görə öz minnətdarlığını bildirmişdir.



***Rəfiqə***

# Ağdaş rayonunda Vətən müharibəsi şəhidinin ildönümü mərasimi keçirilib



Kərimli Nihat Teymur oğlu
08.07.1996 - 07.10.2020
Ağdaş şəhəri Ərəbocağı kəndi

Oktyabrın 8-də Ağdaş rayonunun Ərəbocağı kəndində Vətən müharibəsi şəhidi Kərimli Nihat Teymur oğlunun ildönümü mərasimi keçirilib.

Mərasimdə Yeni Azərbayan Pariyası İdarə Heyətinin üzvü, YAP Ağdaş rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən, millət vəkili Cavid Osmanov və partiya fəalları,



İcra Hakimiyyətinin və rayon ictimaiyyətinin nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları və şəhidin döyüş yoldaşları iştirak etmişlər. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidimizin əziz xatirəsi ehtiramla anılmış, ruhuna dualar oxunmuş, döyüş yolu barədə söhbət açılmış, valideyinlərinə başsağlığı verilmişdir.

Qeyd edək ki, Kərimli Nihat Teymur oğlu 8 iyul 1996-cı ildə Ağdaş rayonunun Ərəbocağı kəndində anadan olmuşdur. Vətən müharibəsi başlayan zaman təlim toplanışında olan Nihat Kərimli Ağdərə-Tərtər istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

# YAP Sabirabad rayon təşkilatının rəhbərliyi şəhid ailəsini ziyarət edib






Yeni Azərbaycan Partiyası Sabirabad rayon təşkilatının rəhbərliyi və fəalları 44 günlük İkinci Qarabağ müharibəsinin ildönümü ilə əlaqədar şəhid ailələrini ziyarət tədbirlərini davam etdirməkdədirlər.Belə ki, YAP Sabirabad rayon təşkilatının rəhbərliyi və fəalları rayonun Qasımbəyli kəndində olan şəhid Musayev Bayram Mehman oğlunun ailəsi ilə görüşüb, qayğıları ilə maraqlanıb və şəhidmizin əziz xatirəsini ehtiramla yad ediblər. Qeyd olunub ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olmuş hərbçilərin ailələrinin, Qarabağ müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin sosial məsələlərinin həlli daim diqqət mərkəzindədir. Şəhidlərin doğmaları onlara göstərilən diqqət və qayğıya görə müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər.

# YAP Şirvan şəhər təşkilatının fəalları şəhid Zeynal Zülfüqarlının ailəsini ziyarət edib





Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatının fəalları 44 günlük Vətən müharibəsi zamanı şəhid olmuş Zülfüqarlı Zeynal Alim oğlunun ailəsini ziyarət edib. Mərasim iştirakçıları şəhidin keçdiyi şərəfli döyüş yolundan bəhs edib və nümunəvi gənc kimi cəmiyyətin rəğbətini qazandığını vurğulayıblar.



Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatının fəalları hər biri bir qəhrəmanlıq dastanı olan şəhidlərlə qürur duyduqlarını, onları unutmayacaqlarını, unutdurmayacaqlarını deyiblər və şəhidlərin ailələrinə səbr diləyərək başsağlığı veriblər.

***Ermənistanın 3-4 il müddətinə işğal etdiyi və qanunsuz olaraq 30 il müddətində işğalda saxladığı Azərbaycan torpaqları işğalçı tərəfin növbəti təxribatlarına cavab olaraq, əks hücum olaraq başladılan və cəmi 44 gün davam edən müharibə nəticəsində Ali Baş Komandanın rəhbərliyi, xalqımızın birliyi, həmrəyliyi ilə hərbçilərimiz, ordumuz tərəfindən geri alındı və bununla da artıq ölkəmiz regionda yeni reallıqlar yaratdı. İşğalçı ölkənin istəklərinə, arzularına 44 günlük müharibə ilə son qoyuldu və bölgədə vəziyyət tamamilə dəyişdi.***

# Yeni reallıqlardan doğan rezonans və etiraflar



Qarabağ probleminə son qoyuldu, erməni separatçıları tərəfindən 30 il işğal altında saxlanılan torpaqlarımız işğaldan azad olundu və həmin ərazilərdə artıq yenidənqurma, bərpa, abadlıq işlərinə başlanılıb, infrastruktur layihələri həyata keçirilir, bir sözlə həmin ərazilər Azərbaycanın nəzarəti altındadır. Artıq Azərbaycan qalib ölkə statusuna malikdir və başqa statusdan da söhbət belə gedə bilməz. Bir sözlə, bölgədə yeni reallıqlar yaranıb və bunun da bütün dünya şahididir.

Məsələ burasındadır ki, Azərbaycan qalib ölkə olmasının fonunda yenə də müharibə səhifəsinin qapadılmasının tərəfdarıdır. Ölkəmiz yenə də düşmənçiliyə son qoyulmasını istədiyini bəyan edir. Azərbaycan sülhün təmin olunması və əməkdaşlıq əlaqələrinin qurulması ilə bağlı çağırışlar və təşəbbüslərlə çıxış edir. Xatırladığımız kimi, hələ ikinci Qarabağ müharibəsindən öncə də biz işğal edilən torpaqlarımızın dinc yolla, müharibə, savaş olmadan qaytarılmasının tərəfdarı, sülhün tərəfdarı olduğumuzu bildirmişdik, elə indi də sülhün tərəfdarıyıq. Yəni, bu, məhz Azərbaycanın dəyişməz mövqeyidir.

Bəllidir ki, Azərbaycanın regionda funksionallığını artırması regionda baş verən son məlum proseslərdən kənarda qalan qüvvələrin maraqlarına uyğun deyil. Bölgənin təhlükəsizliyi baxımından Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlığının həlledici amilə çevrilməsinə görə bu qüvvələrin narahatlığı da başadüşüləndir. Bir növ, yeni reallıqlar, Azərbaycanın regionda yaratdığı yeni reallıqlar rezonans doğurub desək, yanılmarıq. Çünki, sual oluna bilər ki, indi, yəni Qarabağla bağlı məsələ həll olunandan sonra, artıq Qarabağ problemi deyilən bir problem olmadığı bir zamanda həmsədrlər niyə ortalığa düşüb nə isə etmək, hansısa müdaxilə etmək istəyirlər? Bu müdaxilə üçün onların məgər 30 ilə yaxın müddətdə vaxtları olmayıbmı? Yoxsa, bir zamanlar Qarabağ məsələsinin həllinə fokuslanmalı olan ATƏT-in Minsk Qrupuna 30 il ərzində şərait yaradılmırdımı? Bu qrup niyə bu zamana qədər bu qədər maraqlı deyildi bölgədəki vəziyyətlə bağlı? Cavab çox sadədir və bəllidir ki, bölgənin bundan əvvəlki vəziyyəti onları qane edirmiş və problemin həlli də davam etməsində maraqlı idilərmiş.

Əlbəttə ki, Qarabağ məsələsini bayraq edərək bölgəyə səfərlər edən, əllərində nəzarət mexanizmi kimi bir rıçaq olduğunu zənn edənlərin, xəyal edənlərin cəmi 44 gün ərzində xəyallarına son qoyuldu və indi onların çaxnaşmaları, narahatlıqları anlaşılandır. Amma onlar bunu başa düşməlidirlər və hətta başa düşməyə də başlayıblar ki, mövcud reallıqlar onların maraqlarına uyğun olmasa da, nə qədər narahat olsalar da, bunu açıq şəkildə ifadə etsələr də reallığı dəyişmək iqtidarında deyillər. Məsələn, proseslərdən kənarda qalan ATƏT-in Minsk Qrupunun Amerika, Fransa kimi həmsədr ölkələri bu gün guya aktivlik nümayiş etdirməyə, məsələyə müdaxilə etməyə cəhd göstərsələr də layiqli cavablarını alırlar. Ali Baş Komandan, cənab Prezident İlham Əliyev dünyanın sayılıb-seçilən mətbuat səhifələrinə müsahibələrində heç bir qüvvənin bölgədə mövcud reallığı, Azərbaycanın yatadığı yeni reallığı dəyişə bilmək iqtidarında olmadığını bəyan edib və qətiyyətli mövqeyini bildirib.

Əsl reallıq, məhz bugünkü reallıq isə daha çox ondan ibarətdir ki, rəsmi İrəvan işğal faktının Ermənistanın inkişafına nə dərəcədə mənfi təsir etdiyini dərk etmək məcburiyyətindədir və dərk edir də. Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan informasiyalardan da görürük ki, bu reallığın, daha dəqiq desək, işğal faktının Ermənistanı nəinki inkişafdan məhrum etdiyinin, bu işğalçı ölkəni iflic vəziyyətinə gətirdiyinin, Azərbaycanın isə durmadan, davamlı və sürətli inkişafının etiraf edilməsinə istər siyasi istiblişmentin ritorikasında, istərsə də ayrı-ayrı siyasi şərhçilərin açıqlamalarında tez-tez rast gəlinir. Çünki, özləri də başa düşmək məcburiyyətindədirlər ki, ölkələri siyasi, iqtisadi, sosial kataklizmlərdən çıxa bilmir və ikinci Qarabağ müharibəsi Ermənistandakı böhranı daha da dərinləşdirib. Bu işğalçı ölkə cəmi 44 gün ərzində hərbi qüvvələrini, texnikalarını, böyük həcmdə resurslarını itirib, böyük miqdarda maddi itgilərlə üzləşib. Əbəs yerə deyil ki, ikinci Qarabağ müharibəsindən sonra Ermənistanın maddi sıxıntısı dəfələrlə artıb və səfalət, qənlik də buna münasib şəkildə çoxalıb. Yəni, bunu etiraf etməkdən boyun qaçırmağın da faydası yoxdur.

Hazırda Ermənistan hakimiyyəti hətta torpaqların Azərbaycana vaxtında qaytarılmamasını ciddi siyasi səhv kimi etiraf etməkdən belə çəkinmir. Ermənistanın baş nazirinin özünün belə etiraflarının dəfələrlə şahidi olmuşuq. Sonuncu dəfə belə etirafları baş nazir Nikol Paşinyan Litvada səfərdə olarkən erməni icması ilə görüşdə edib.

"Anlamaq lazımdır ki, müharibəyə yol verməməyin yeganə şərti ərazilərin qaytarılması olub. Odur ki, müharibəyə yol verməmək üçün biz əraziləri qaytarmalı idik. Ən azı 5 rayonu. Digər 2 rayon məsələsi başqadır. Əslində isə, gərək qeyd-şərtsiz 7 rayonu qaytaraydıq", deyə Ermənistanın baş naziri işğalçı ölkənin yanlış, səhv addım atdığını etiraf edib.

Beynəlxalq ictimaiyyətə tarixi Azərbaycan şəhəri olan Şuşanı, erməni şəhəri kimi tanıtmağa çalışan Ermənistan 30 illik işğal dövründə burada törətdiyi vandallıqlarla bu şəhərə olan əsl münasibətini sübut edib, bütün dünyaya göstərib. İndi bunu, bu reallığı gizlədə bilməyən ermənilərin etiraflardan başqa çarəsi qalmayıb. Şəhərdə bircə dənə bina belə tikməyən ermənilər oradakı tikililəri də dağıdıblar, şəhəri viran qoyublar. Şuşa şəhərində 30 il ərzində bir dənə də olsa tikinti, yaxud abadlıq işi görülməyib və bu da təbii ki, səbəbsiz deyildi. Görünür, ermənilər bu şəhərin əsl sahiblərinə qaytarmalı olacaqlarını, əslində subliminal olsa da qəbul ediblər. Yəni, əslində yaxşı biliblər ki, bu şəhərin işğalı ilə Azərbaycan barışmayacaq və bu şəhər bu zamana qədər onlara məxsus olmadığı kimi, bundan sonra da onlara qalmayacaq. Elə buna görə də bir dənə də olsa tikinti, bərpa işi görülməyib. Bu faktı da erməni baş nazir dəfələrlə etiraf edib və ən son etirafını yenə də Litvada səfərdə olarkən erməni icması qarşısında edib.

"Bu gün Şuşa haqqında bu qədər danışırlar. Bəs bu 30 ildə Şuşada neçə yaşayış evi tikilib? Heç bir. Bəs niyə? Kimsə heç soruşmur ki, niyə tikilməyib. Nədir bunun səbəbi? Məntiq nədir ki, tikilməyib? Pulları olmayıb? Cavab məncə aydındır", deyə erməni baş nazir həqiqətən tarixi bir etiraf edib.

Ola bilsin ki, bu gün Ermənistanda revanşizm dəb halını ala bilər və kimlərsə özlərini revanşist olaraq qəhrəman kimi qələmə verməyə çalışa bilərlər. Amma, onlar da etiraf etməlidirlər və edəcəklər ki, revanşdan dəm vurmaqdansa bir il bundan qabaq Qarabağa gedib erməni hərbçilərinə yardımçı ola, ən azından qaçmaq üçün kömək edə bilərdilər. Halbuki, indi özlərini dırnaqarası qəhrəman kimi qələmə vermək istəyən revanşistlər həmin o müharibə dönəmində qaçıb gizlənmişdilər. Hətta Qarabağ ərazisində məskunlaşanları belə İrəvanda sığınacaq tapırdılar. Müharibə qurtarandan sonra bu adamlar qəhrəmana çevrildilər, yoxsa dırnaqarası "igid" olduqlarını müharibə bitəndən, ölkə başçıları kapitulyasiya sənədi imzaladıqdan sonra başa düşüblər? Bəs başa düşməyiblər ki, əsl reallıq ondan ibarətdir ki, onların heç bir perspektivləri yoxdur? Yəqin ki, bu reallığı da tamamilə məhv olandan sonra başa düşəcəklər və etiraf edəcəklər.

Azərbaycanın hal-hazırda mövqeyi çox güclüdür və bunu ermənilərin, erməniпərəstlərin, hətta qeyd etdiyimiz kimi, proseslərdən kənarda qalan qüvvələrin belə etiraf etmələrindən başqa çarələri yoxdur. Ən böyük reallığın biri də məhz budur və bu reallıq da fərqli bir rezonans doğurmaqla yanaşı etiraf da olunur. Etiraf olunur ki, Azərbaycan işğalçı ölkədən fərqli olaraq inkişafa, tərəqqiyə üstünlük verib, güclü dövlətə çevrilib. Bu gün Azərbaycan da, onun mövqeyi də ona görə güclüdür ki, ölkəmiz tarixi ədalətə və bu ədalətdən doğan entuziazma söykənir.

***İnam Hacıyev***



Təhmasib Novruzov

## Sözü qurtaran "aşıq"ların "neynim-neynim"lərindən bir yarpaq

***Bunu çox demişik. Amma mövzumuzun tələbinə baş əyib yenə deməyə məcburam. Bu iki yox, çoxüzlü dünyada siyasilərin, xüsusən də bəzi "demokratiya" bayrağına bürünmüş qərb siyasətbazlarının yerli-yersiz Azərbaycan dövlətinə qarayaxmalarının tez-tez şahidi oluruq. Artıq buna adət eləmişik və sanki normal hal kimi qəbul edirik.***

Əslində, həmin siyasətbazların məqsədləri də, məramları da bizlərə gün kimi aydındır. Bəs özünü müstəqil adlandıran bəzi qərb medialarının ölkələrindəki tiri görməyib də bizdə "qıl" axtarmalarının səbəbi nədir görəsən? Görünən odur ki, guya insan haqlarını, söz azadlığını müdafiə etdiklərini iddia edən bu cür medialar da elə həmin siyasətbazların əllərinə oynayırlar. Azərbaycana qarşı dəfələrlə haqsız, həqiqətdən uzaq yazıları ilə məşhur olan bir neçə dünyaca tanınmış media qurumları var və bunları hər birimiz yaxşı tanıyırıq. Amma bu günlərdə adını heç vaxt eşitmədiyim eurosuanet.org adlanan bir saytın (Dediyinə görə, Londonda fəaliyyət göstərir bu sayt) Dubay təmsilçiliyindən Melane adlı bir jurnalist məni sorğu-suala tutdu. Əvvələvvəl Qarabağdakı tarixi zəfərimizlə bağlı bir-iki sual verəndən sonra keçdi şantaja. Əvvəlki suallar da, verdiyim cavablar da hər birimizin bildikləridir. Odur ki, onlar haqqında burda yazıb vaxtınızı almağa lüzum görmürəm. Ancaq sonradan verdiyi sual və mənim cavabıma reaksiyasını qısa olaraq oxucularıma təqdim edirəm. Jurnalist xanım soruşur ki, Şuşaya, Ağdama getmək üçün o yerin sakinləri pul ödəyirlər(?), bu, etikdirmi? Qəti şəkildə belə bir ödənişin olmadığını bildirirəm və əlavə edirəm ki, mən iki dəfə Ağdama, bir dəfə şuşaya səfər etmişəm, nəinki pul ödəmişəm, hətta məni nəqliyyatla və iki dəfə yeməklə də pulsuz təmin ediblər. Cavabım onu qane etmədi deyəsən. Bu dəfə oxu.az saytından bir görüntü göndərdi. Orda hansısa bir turizm şirkətinin Ağdama, Şuşaya turist səfərləri təşkil etdiyi və adamlara ödəniş qarşılığında vətənlərinə getməyə dəvət etdiyi deyilirdi (Bu yerdə bizim bəzi media qurumlarımız üçün də bu bir siqnal olmalıdır ki, düşmən gecə-gündüz bizim mətbuatımızda gedən yazılardan istədikləri məqsəd üçün istifadə etməyə çalışır). Buna da izahat verdim ki, hansısa bir möhtəkir yaranmış şəraitdən istifadə edib pul qazanmaq istəyir yəqin. Amma mən belə bir turist səfəri ilə bu günə kimi qarşılaşmamışam. Bu dəfə verdiyi sualla içini açmış oldu: İnsanların öz doğma yurdlarına getməsi üçün onlardan pul tələb edilməsi bu yerlərə adamların sərbəst gediş-gəlişinə icazə verilməməsi ilə əlaqəli ola bilməzmi? Aydındı. Azərbaycana qarşı qarayaxma kompaniyasının başbilənləri indi də bu üsula əl atmaq istəyirlər. Aşığın sözü qurtaranda "neynim-neynim" dediyi kimi, bunlar da qarayaxma üçün bir fakt tapmadıqlarından indi də bu üsula əl atırlar. Sualın mənası o idi ki, yəni Azərbaycan hökuməti bilərəkdən(?)adamların öz yurdlarına getmələrinə qadağa qoyur ki, "turizm" adı ilə pul yığsın. Gülməyin, vallahi-billahi belə də soruşdu. Bəlkə təcrübəsiz jurnalist idi, ona verilən tapşırığı icra edərkən özünü ifşa etmiş oldu. Ya da gördü ki, mən dirənirəm, ona görə çaşdı. Amma o sual da mənim vaatsapımdadı, ona verdiyim cavab da. Eləmədim tənbəllik, mən də fürsətdən istifadə edib bu torpaqlara ermənilərin nə qədər minalar basdırması, bunun nəticəsində torpaqlar işğaldan azad edildikdən bu günə qədər yüzlərlə insanın minalara düşərək ölməsi və yaralanması, düşmənin hələ də minalanmış sahələrin xəritəsini Azərbaycan tərəfə verməməsi haqqında geniş yazıb, sonda da bu yerlərə insanların sərbəst gediş-gəlişinin təhlükəli olduğunu qeyd etdim. Bura gedənlərin yanında hökmən bələdçilərin də olduğu, onların insanları minalanmış ərazilərdən qoruduğu və sair, və ilaxır haqqında geniş bir məlumat yazıb düyməni basdım. Elə bil qurbağanın gölünə daş atdım. Getdi və bir də yazmadı... Bu xırda olayı niyə yazıb vaxtınızı məşğul etdim, bilirsiniz? Qoy oxucularımız şahid olsun, düşmən hələ də bizdə fakt axtarmaqdadır. Görün əlinə düşən qarışqa qədər kiçik bir məsələni necə böyüdüb dəvəyə, filə çevirmək istəyirlər. Ehtiyat igidin



*Iranlı nazir Bakının xarici dövlətlərin iştirakı ilə keçirdiyi hərbi təlimləri təxribat adlandırdı və eyni zamanda, Tehranın "Qafqazda xəritədə dəyişiklik" edilməsinə dözməyəcəyini bildirib.*

# Bakıdan Moskvaya şikayət edən Tehran

ANALİZ







Xəbər verdiyimiz kimi, İranın yeni xarici işlər naziri Hüseyn Əmir-Abdollahian Moskvaya səfər edərək rusiyalı həmkarı Sergey Lavrovla görüşüb və danışıqlar aparıb. Görüşdə müzakirə olunan məsələlər haqda "Kommersant" qəzetində dərc edilən yazını oxucularımıza təqdim edirik.

İranlı nazir əmin edib ki, Rusiya Federasiyası ilə əlaqələr İranın xarici siyasəti üçün prioritetdir. Hər iki nazir ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barədə razılığa gəldilər, lakin fərqli yollarla regional gündəmə vurğu ediblər. Sergey Lavrov üçün prioritet məsələ nüvə anlaşmasının gələcəyi idi, iranlı həmsöhbətini isə Azərbaycanla münasibətlər daha çox narahat edirdi.

Sergey Lavrov nüvə razılaşması ilə bağlı Vyana məsləhətləşmələrinin tezliklə bərpasının zəruriliyində israr etdi, amma Hüseyn Əmir-Abdollahian, İranın ABŞ-ın Amerika banklarında İran mülkiyyətini blokdan çıxarmasını gözlədiyini açıqladı.

Hüseyn Əmir-Abdollahianın xarici işlər naziri olaraq Moskvaya ilk səfəri, vəzifəyə başlayandan bir ay yarım keçməmiş baş verdi. Cənab Amir-Abdollahian karyera diplomatıdır, baxmayaraq ki, son illərdə İran parlamentinin spikerinin müşaviri idi. KİV-in yazdığı kimi, Xarici İşlər Nazirliyindən ayrılması, şöbə müdiri Məhəmməd Cavad Zəriflə fikir ayrılığına görə idi. Sergey Lavrov Zəriflə həmişə asanlıqla ortaq bir dil tapırdı, amma onun varisi ilə münasibətlərinin necə inkişaf edəcəyini söyləmək çətindir.

İki nazir arasındakı danışıqlar iki saat davam etdi və jurnalistlərin qarşısına çıxanda, əhval-ruhiyyənin işgüzar olmasına baxmayaraq, diplomatlar arasında xüsusi mehribanlıq olmadığı qənaətinə gəldilər.

Nazirlər mətbuat konfransında açılış sözlərinin əhəmiyyətli bir hissəsini ikitərəfli əlaqələrin inkişafına həsr ediblər. Sergey Lavrov, ikitərəfli ticarətin pandemiyaya və ABŞ-ın qeyri-qanuni sanksiyalarına baxmayaraq, bu ilin ilk 7 ayında 42% artaraq 1.9 milyard dollara çatdığını qeyd etdi. Pandemiyadan əvvəl 2019-cu ildə ticarət dövriyyəsi 1,6 milyard dollardan bir qədər çox idi.

Onun sözlərinə görə, artıq İranda əhalinin 70%-i peyvənd olunub və buna görə də İranlı iş adamlarının Rusiyaya gəlməsinə və ticarət -iqtisadi sahədə əlaqələrin inkişafına heç bir maneə yoxdur. Sergey Lavrovun sözlərinə görə, Moskva və Tehran "Sputnik V" peyvəndinin İrana tədarükü ilə bağlı müqavilənin icrasını sürətləndirmək barədə razılığa gəliblər. İki ay əvvəl İranın Rusiyadakı səfiri Kazem Cəlali, Rusiyanın müqaviləyə əsasən göndərəcəyi 62 milyon doz dərmandan yalnız 1 milyon 20 min dozanın alındığını təəssüflə bildirdi. O vaxtdan bəri, İrana daha 200.000 doz çatdırıldı.

Əgər ikitərəfli təmasları inkişaf etdirmək planları sual doğurmursa, o zaman mətbuat konfransında bəlli olduğu kimi, Moskva və Tehran beynəlxalq və regional gündəmə fərqli şəkildə vurğu edir. İctimai açıqlamaları zamanı Sergey Lavrov İranın nüvə proqramı (JCPOA) ətrafında yaranmış vəziyyəti həll etmək üçün Birgə Hərtərəfli Fəaliyyət Planı ilə əlaqədar məsələlərə diqqət çəkdi. Xatırladaq ki, sənəd 2015-ci ildə İranla BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü və Almaniya arasında imzalanıb.

2018-ci ildə ABŞ birtərəfli qaydada nüvə anlaşmasından çıxdı və İrana qarşı sanksiya siyasətinə qayıtdı. Buna cavab olaraq, bir il sonra Tehran JCPOA çərçivəsində götürdüyü öhdəliklərdən tədricən imtina etməyə başladı və bu, beynəlxalq ictimaiyyət arasında İranın nüvə silahı hazırlamaq ehtimalına dair narahatlıq yaratdı. Prezident Co Bayden administrasiyasının Ağ Evə gəlişindən sonra Vaşinqton Tehranla dialoqu bərpa etmək qərarına gəldi. Dolayı məsləhətləşmələr aprel ayında Vyanada başladı, lakin altı turda heç bir uzlaşma tapılmadı. Tehran sanksiyaların ləğv ediləcəyinə dair zəmanət istəyir.

İyun ayında İranda keçirilən və mühafizəkar Ebrahim Rəisinin qələbəsi ilə nəticələnən prezident seçkilərindən və onu nəzarətində hökumətin qurulmasından sonra Tehran Vyana məsləhətləşmələrini bərpa etməyə tələsmədi. Və beynəlxalq güclər artıq səbrini itirir. Rusiya ilə İranın xarici işlər nazirləri arasında Moskvada keçirilən danışıqlardan sanki bir saat əvvəl, Sergey Lavrovla ABŞ-ın dövlət katibi Entoni Blinken arasında amerikalıların təşəbbüsü ilə baş verən JCPOA mövzusunda telefon danışığı məlum oldu. Bəlkə də cənab Blinken iranlılara mesajı çatdırmaq üçün tələsirdi.

Mətbuat konfransının açıq hissəsində Sergey Lavrov Antoni Blinkenlə söhbətdən bəhs etmədi, eyni zamanda vurğuladı ki, "dünya ictimaiyyəti ABŞ-ın nüvə sazişinin hüquqi sahəsinə qayıtmasını və qanunsuz məhdudiyyətlərin ləğv olunmasını gözləyir". Eyni zamanda, Rusiya xarici işlər naziri iranlı qonağının Tehranın Vyanada məsləhətləşmələri ən qısa zamanda bərpa etməyə hazır olduğunu təsdiqlədiyini və bu baxımdan mövqeyinin Rusiyanın mövqeyindən fərqlənmədiyini qeyd etdi.

İranlı nazir, öz növbəsində, "Kommersant" ın Vyana danışıqlarının vaxtını dəqiqləşdirmək istəyinə cavab verməkdən yayındı, lakin BMT Baş Assambleyası zamanı amerikalıların iranlılara prezident Baydenin JCPOA ilə əlaqədar "ciddi niyyətləri" ilə bağlı mesajlar verdiklərini söylədi.

Bununla belə, nazir İranın xarici banklardakı 10 milyard dollarlıq aktivinin blokdan çıxarılmasının ABŞ-ın ciddi niyyətlərinin göstəricisi olacağını açıq şəkildə bildirdi.

Hüseyin Əmir-Abdollahianın JCPOA haqqında danışmaq məcburiyyətində olmasına baxmayaraq, Sergey Lavrovdan fərqli olaraq açıq şəkildə bu məsələni prioritet hesab etmirdi. Onun üçün əsas və çox ağrılı mövzu Azərbaycan idi. İranlı nazir, Bakının xarici dövlətlərin iştirakı ilə keçirdiyi hərbi təlimləri təxribat adlandırdı və eyni zamanda Tehranın "Qafqazda xəritədə dəyişiklik" edilməsinə dözməyəcəyini söylədi. "Bu bölgədə terrorçuların və sionistlərin olması ilə bağlı ciddi narahatlığımız var"- o dedi. Sentyabrın sonlarında, Azərbaycan İran yük maşınlarının Qarabağa girməsinin qarşısını almaq qərarına gəldikdən sonra Bakı ilə Tehran arasındakı münasibətlər daha da gərginləşdi və Bakı İranın sərhəd yaxınlığında hərbi manevrlərindən narahatlığını bildirdi. Tehran İsrail ilə hərbi əlaqələri də daxil olmaqla Bakını tənqid etdi. Dünən məlum olub ki, İran Azərbaycan hərbi aviasiyası üçün Naxçıvana hava dəhlizini bağlayıb.

Sergey Lavrov, həmkarı ilə müzakirə etdiyi digər regional mövzularla yanaşı, Zaqafqaziyadakı vəziyyəti də qeyd etdi, lakin iranlı bir jurnalistin Rusiyanın mövqeyini aydınlaşdırmaq istəyindən sonra buna qayıtmaq məcburiyyətində qaldı. Nazirin sözlərinə görə, Moskva hər şeyi çoxdan, Qarabağdakı müharibənin dayandırılmasında həlledici rol oynayanda söyləyib. Bir il əvvəl əldə edilən razılaşmalar çərçivəsində, bölgədəki bütün nəqliyyat kommunikasiyalarının və iqtisadi əlaqələrin açılmasından söhbət gedirdi.

"Bu kontekstdə bu gün" 3+3 "formatının yaradılması təşəbbüsünü müzakirə etdik: 3 Zaqafqaziya ölkəsi və 3" böyük "qonşu: Rusiya, İran və Türkiyə"- Rusiya xarici işlər naziri dedi. O, həmçinin açıq şəkildə bildirdi ki, iranlılar xarici oyunçuların Xəzər regionunun işlərinə müdaxilə etməməyini istəsələr, Xəzəryanı olmayan hər hansı bir dövlətdən hərbi qüvvələrin olmasını qadağan edən Xəzərin Hüquqi Vəziyyəti haqqında Konvensiyanı ratifikasiya etməlidirlər". Konvensiya Rusiya, Qazaxıstan, İran, Azərbaycan və Türkmənistan prezidentləri tərəfindən 2018-ci ilin avqustunda imzalanıb. Sənədi ratifikasiya etməyən sonuncu ölkə İrandır.

***Müəllif: Marianna Belenkaya***
***Tərcümə: Elçin Bayramlı***

# "Müxalifətin söyüş söyməsi acizliyinin əlamətidir"



"Sivil mübarizə yolunu seçə bilməyənlərin yalnız bir yolu qalır o da söyüş söymək. Yəni opponentlərinin mövqelərini uyğun hesab etməyəndə təhqirlər söyləyirlər. Belə olan halda da, xaricdə olan söyüş müxalifəti də heyflərini söyüş yolu ilə çıxırlar. Müxalifətin söyüş söyməsi acizlik, arqumentsizliyin, bacarıqsızlığın əlamətidir. Bu xislətə malik olan insanların fəaliyyəti qınanılan bir haldır. Siyasətdə söyüş olmaz, ümumiyyətlə, özlərini siyasətçi adlandıran və ya siyasətçilərə "xidmət edənlər" üçün yaramaz bir haldır". Bunu SİA-ya açıqlamasında Təkamül Partiyasının sədri Teyyub Qənioğlu deyib.

Onun sözlərinə görə, bu gün Azərbaycan dövlətinin əldə etdiyi qələbəni qəbul etməyən çoxlu xarici qüvvələr var: "Yəni Azərbaycanda situasiyanı qarışdırmaqda maraqlı olan qüvvələr var. Müxalif şəxslərdən öz məkrli planlarını həyata keçirmək üçün bir alət kimi istifadə olunur. Bu da qınanılası bir haldır. Yəni başqalarının buyruğu ilə oturub-durmaq heç də yaxşı bir hal deyil. Ümumiyyətlə, kimin nə etməsindən və nə deməsindən asılı olmayaraq onlar heç vaxt Azərbaycan dövlətinin əldə etdiyi parlaq qələbəyə, uğurlarımıza kölgə sala bilməyəcəklər".

***Gülyana***

# İrəvanla Eçmiədzinin "b" planı: bu dəfə "avropalı qardaşlar"

***"Son günlər Cənubi Qafqazda müşahidə edilən İran-Azərbaycan qarşıdurması fonunda Ermənistandakı situasiya ikinci plana keçid alıb, daha dəqiq desək, bu ölkənin rəhbərliyinin nə ilə məşğul olması". "Səs" qəzetinin yazdığına görə, bu barədə Qafqazın tarixi Mərkəzinin direktoru Rizvan Hüseynov caliber.az analitik informasiya mərkəzində analitik məqalə ilə çıxış edib. Onun sözlərinə görə, Tehran özünün və ermənilərin maraqlarını müdafiə etməyə cəhdlər göstərərkən aydın olur ki, İrəvan və Eçmiədzin (ermənilərin qədim Azərbaycan torpaqlarında qurduqları saxta dini mərkəzləri-R.R.) başqa istiqamətdə gedirlər və görünür, dünyanın güclü tərəfləri ilə dialoq yollarını axtarırlar.***



## *Rizvan Hüseynov: "Reallıqlar türk və ya müsəlman layihələri qarşısında Avropa və Qərb layihəsinin zəiflədiyini diktə edir"*





SİTAT: "Ermənistanın baş naziri Nikol Paşinyan Litvada idi və orada Avropa İttifaqı (Aİ) tərəfindən dəstəyin gücləndirilməsi, ortaqlıq və əlavə yardım axtarırdı. Burada Paşinyan Azərbaycan Prezidenti ilə görüşməyə hazır olduğunu bəyan etdi və Aİ-nin bu dialoqda ortaqlıq edəcəyinə ümid etdiyini bildirdi".

Yazıda Ermənistan parlamentinin nümayəndə heyətinin başda sədri Alen Simonyan olmaqla Moskvaya səfərləri barədə bildirilir və qeyd olunur ki, Rusiyanın paytaxtında onları ölkənin XİN rəhbəri Lavrov və digər rəsmi şəxslər qəbul ediblər. "Burada gözlənilən Paşinyan-Putin görüşünün detalları müzakirə edilib və Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanması elementləri barədə danışılıb", deyə bildirilir və əlavə olunur ki, İrəvan Paşinyan-Əliyev görüşünün təşkil eidlməsində hazırdır, eyni zamanda, Moskvanın dəstəyinə ümid edirlər.

"Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan isə Tehranda olub və iranlı həmkarı Hüseyn Əmir Abullahiyanla görüş keçirib. Burada Ararat Mirzoyan Qarabağ məsələsində "qardaş Ermənistana" dəstəyinə görə Tehranı sevgi və minnətdarlıq "atəşinə" tutub.



Bu fonda Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan Dubayda Dubai Expo sərgisində iştirak edib və orada fars monarxiyasının yüksək çinli şəxsləri ilə görüşüb və Ermənistanın "innovativ layihələri" adı altında pul dilənib", yazan Rizvan Hüseynov əlavə edib ki, daha maraqlı olaylar Ermənistan prezidenti Armen Sarkisyanın İtaliya prezidenti Sercio Martarellanın dəvəti ilə bu ölkəyə səfəri zamanı yaşanıb: "Sarkisyanı isə rəsmi səfəri çərçivəsində bütün ermənilərin katolikosu II Qaregin və başqa şəxslər müşayiət ediblər. Artıq Sarkisyanın İtaliya prezidenti ilə, nazirlər şurasının sədri Mario Draqi ilə, eləcə də senatın sədri, palata sədri, deputatlar və Roma meri ilə görüşləri keçirilib.



Sarkisyanla yanaşı, səfərdə iştirak edən Ermənistanın ombudsmanı Arman Tatoyanın Vatikanın dövlət katibi, kardinal Pyetro Parolinlə görüşü keçirilib və həmin görüşdə Tatoyan Azərbaycanda saxlanılan "əsirlər ermənilərin" siyahısını təqdim edib, Vatikandan onların geri qaytarılmalarında dəstəyini istəyib.

Bütün ermənilərin katolikosu II Qaregin isə Roma papası Fransisklə görüşəcək və "İnsanlar dünyanın gələcəyində qardaş kimi: dinlərin və mədəniyyətlərin dialoqu" konfransında və kilsələrarası dualarda iştirak edəcəklər. Erməni apostol kilsəsinin rəhbəri müzakirələrdə iştirak edəcək və dünyaya sülh çağırışı edəcək".

Qafqazın tarixi Mərkəzinin direktoru xatırladıb ki, konfransa dünyanın 40 ölkəsindən siyasətçilər və müxtəlif dini icmaların nümayəndələrə qatılıb.

Konfransa ən yüksək səviyyədə Rusiya pravoslav kilsəsinin, anqlikan kilsəsinin, protestant kilsəsinin nümayəndələri, katolik missionerlər, buddistlər, hinduslar, müsəlman xadimləri və siyasətçiləri iştirak ediblər. Konfransa Almaniyanın kansleri Angela Merkel də qatılacaq.

Erməni tərəfini həmçinin sahibkar və filantrop, Moderna biotexnoloji şirkətinin həmtəsisçisi, Covid-19 vaksininin yaradıcısı Afeyan Nubar da iştitak edir.

Qeyd olunur ki, mərasimin ən mühüm və həlledici məqamı Kolizeydə keçiriləcək. Orada müxtəlif konfenssiya və din nümayəndələri sülh üçün dua edəcəklər. Xrsitianlar isə bütün ermənilərin katolikosu II Qaregin rəhbərliyi və Roma papasının Fransiskin iştirakı ilə ekumenik dua edəcəklər.

"Baş verənlər isə ondan xəbər verir ki, rəsmi İrəvan və Eçmiədzin Rusiyada lazımi dəstəyi ala bilmədiklərini dərk etdikdən sonra bu mərhələdə özlərini tamamilə "avropalı qardaşlarının" altına yıxacaqlar. İlk növbədə, Vatikanın, hansı ki, XVII-XVIII əsrlərdə erməni tarixi və siyasi layihəsinin təməlində dayanmışdı. Qaba desək, kimlər ki, erməni layihəsini doğub-ərsəyə gətiribsə, əsrlər boyu Aqsiyanın və Qafqazın geniş ərazilərini zəbt ediblərsə, onlar bu dəfə yeni dünya reallığında həmin layihəni format edib yeniləcəyini düşünürlər. Lakin reallıqlar türk və ya müsəlman layihələri qarşısında Avropa və Qərb layihəsinin zəiflədiyini diktə edir", Rizvan Hüseynov məqaləsində qeyd edib.

***Rövşən RƏSULOV***

**Roma "Sapienza" Universitetinin professoru, universitetin Azərbaycanşünaslıq kafedrasının müdiri Daniel Pomye "Caliber" analitik mərkəzinə müsahibəsində 2-ci Qarabağ müharibəsi ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

# İtalyan professor: "Azərbaycan öz sərhədlərini və ərazi bütövlüyünü qorumaq üçün hərəkətə keçdiyi üçün dünyanın dəstəyinə arxalana bilər"



**- 18 dekabr 2020-ci ildə İtaliya ilə Azərbaycan arasında Qarabağın enerji infrastrukturunun yaradılması çərçivəsində əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Beləliklə, İtaliya Azərbaycanın azad edilmiş ərazilərinin bərpasında iştirak etmək arzusunu ifadə edən ölkələrdən birinə çevrildi. Bəs İtaliya cəmiyyəti Qarabağ münaqişəsi haqqında nə bilir? Ermənistanın işğalçılıq siyasətindən nə dərəcədə xəbərdardır?**



- Əlbəttə ki, hər bir cəmiyyətdə olduğu kimi, İtaliyada da beynəlxalq hadisələrdən daha çox daxili işlər ilə məşğul olurlar. Belə ki, əksər italyanlar Qafqaz məsələlərindən, eləcə də Qarabağ münaqişəsindən xəbərsizdirlər. Halbuki, İtaliya cəmiyyətinin Qarabağ və Azərbaycanla Ermənistan arasındakı münaqişə haqqında məlumatlılığı bu gün 5-10 il əvvəl olduğundan daha böyükdür. Bu maraq, müasir, tolerant və qanuna tabe olan bir ölkə imicinin yaradılmasına töhfə verən Azərbaycan diplomatiyasının və Azərbaycanın Romadakı səfirliyinin yorulmaz işlərindən qaynaqlandı. Buna görə də, erməni təbliğatına və müharibə zamanı Ermənistanın maraqları üçün lobbiçilik edən erməni diasporasının olmasına baxmayaraq, bir çox italyan azərbaycanlıların tərəfini tutdu.

Əsas xəbər agentlikləri- ən çox satılan qəzet "Repubblica" və dövlət televiziyası "Rai 1" Prezident İlham Əliyevdən müsahibə aldı. Mən də öz növbəmdə Sapienza Universitetində Azərbaycan ərazilərinin işğalının tarixi, səbəbləri və nəticələri və bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün haqqında izahlı kurs keçirdim.

**- Bildiyimizə görə, 44 günlük müharibə zamanı İtaliya Parlamentinin Deputatlar Palatası qarşısında Ermənistanın Azərbaycana təcavüzünü dayandırmaq çağırışı ilə keçirilən aksiyada iştirak etdiniz. İtalyan deputatların bu aksiyaya reaksiyası necə oldu?**

- Düşünürəm ki, bizim aksiyamız çox təsirli oldu. Mən erməniləri ittiham etmədən və lağ etmədən, qəti və elmi baxımdan ictimaiyyətə müraciət etməyə çalışdım. Qarabağ multikultural kimliyi olan Azərbaycan türk xanlığı idi. Beynəlxalq hüquqa görə Qarabağ Azərbaycandır. Beləliklə, müharibə zamanı Azərbaycanın böyük üstünlüyü pilotsuz uçan aparatlardan, tanklardan və ya raketlərdən istifadə etmək yox, Burdye-nin sözləri ilə desək, hüququn və qanunun aliliyindədir. Azərbaycan öz sərhədlərini və ərazi bütövlüyünü qorumaq üçün hərəkətə keçdiyi üçün dünyanın dəstəyinə arxalana bilər.

Bizim hərəkətimiz, mesajımız İtaliya parlamentndə işə yaradı, çünki Azərbaycanın azad edilmiş ərazilərini ziyarət edən ilk parlament nümayəndə heyəti İtaliyanın idi və müxtəlif, hətta rəqib siyasi qüvvələrin nümayəndələrindən ibarət idi.

**- İtaliyanın Cənubi Qafqazda hansı maraqları var?**

- TAP tikintisinin başa çatması və Xəzər dənizindən İtaliyaya qaz nəqlinin başlanması İtaliyanın bölgədəki maraqlarının miqyasını vurğulayır. Enerji təhlükəsizliyi, enerji mənbələrinin şaxələndirilməsi, Qafqaz ölkələri ilə əməkdaşlıq, İpək Yoluna çıxış və Asiya ilə ticarət yolları. İtaliya bu bölgədə təhlükəsizliyin, sabitliyin və inkişafın təmin edilməsində maraqlıdır, buna görə də 44 günlük müharibə zamanı doğru və haqlı tərəfi dəstəklədi.

**- Azərbaycan ilə İtaliya arasında hərbi-texniki əməkdaşlığı necə qiymətləndirirsiniz?**

- Azərbaycan təkcə hərbi texnologiyalar sahəsində deyil, həm də informasiya və kommunikasiya texnologiyaları kimi ikiqat istifadə olunan məhsullar sahəsində də önəmli sayılan "Leonardo" konserni ilə əməkdaşlıq edir. Bu konsernin Azərbaycanla əməkdaşlığı İtaliyanın ölkənizə olan açıq marağını əks etdirir. Baxın, İtaliya xammal baxımından kasıb bir ölkədir. Ancaq texnologiya ilə zəngindir.

**- Yaxın gələcəkdə Cənubi Qafqazı nə gözləyir- sülh, yoxsa yeni müharibə?**

- Bir çox məsələlər hələ də həll olunmamış qalır. Bir tərəfdən Azərbaycan ərazilərin bərpası ilə dərindən məşğul olur, digər tərəfdən də Ermənistan hələ də öz daxili ziddiyyətləri ilə mübarizə aparır. İndi müharibə çətin və arzuolunmazdır, lakin son siyasi həll üçün hələ uzun bir yol var.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*





## "Diplomatiya İranı danışıqlara qaytara bilməsə...

***"Əgər diplomatiya İranı nüvə proqramı ilə bağlı Birgə Hərtərəfli Fəaliyyət Planına qaytara bilməsə, ABŞ başqa tədbirlər görə bilər". SİA xəbər verir ki, bunu ABŞ Prezidentinin Milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivan Ağ Evdə keçirilən Amerika-İsrail Strateji Məsləhət Qrupunun növbəti iclasında bildirib.***

Ağ Ev Milli Təhlükəsizlik Şurasının sözçüsü Emili Horn toplantıdan sonra yazılı açıqlamasında Sallivanın fikirlərini şərh edib.

Bildirib ki, Sallivan toplantıda prezident Baydenin İsrailin təhlükəsizliyi və İranın heç vaxt nüvə silahı əldə etməməsi ilə bağlı əsas öhdəliyini vurğulayıb: "ABŞ rəhbərliyinin diplomatiyanı buna nail olmağın ən yaxşı yolu olaraq gördüyünü izah edən Sallivan, bu istiqamətin uğursuz olacağı təqdirdə ABŞ-ın başqa variantlara əl atmağa hazır olduğunu bildirdi".



Lakin müzakirələr zamanı söhbətin konkret olaraq hansı addımlardan getdiyi açıqlanmayıb. Horn əlavə edib ki, tərəflər bölgənin təhlükəsizliyinə və sabitliyinə təsir edən ən aktual mövzularda fikir mübadiləsi apararaq İsrailə və regional tərəfdaşlara qarşı təhdidlərə qarşı ortaq bir qətiyyət ifadə ediblər: "ABŞ-la İsrail açıq və konstruktiv bir dialoq saxlamağa, habelə müvafiq qruplari arasında İsrailin milli təhlükəsizliyinə, regional sabitliyə təsir edən mövzularda koordinasiyanı daha da dərinləşdirməyə razılaşıblar".

SON SƏHİFƏ
SƏS
9 oktyabr
2021-ci il

# Payızda hansı qidaları qəbul etməliyik?



***Mövsümi olaraq bu günlərdə əvvəlkindən daha çox qidalanmamıza diqqət yetirməliyik. SİA xarici mətbuata istinadən bildirir ki, payızda immuniteti gücləndirmək və yorğunluğu aradan qaldırmaq üçün müəyyən vitamin tərkibli qidaları istehlak etməliyik. Bəs bunlar hansılardır?***

Antioksidant qida - Halsızlıq və yorğunluq hissinin ən vacib səbəblərindən biri də düzgün qidalanmamaqdır. Yetərli və nizamlı qidalanma sağlamlıq üçün atılacaq ən böyük addımdır. Antioksidantlar bədənə zərər verən sərbəst radikalları zərərsizləşdirərək immunitet sistemini gücləndirir. Diyetinizə yüksək antioksidant qabiliyyəti olan qidaları daxil etməyiniz məsləhətlidir: kivi, nar, qreyfrut, portağal, naringi, limon, alma, ispanaq, pazı, kələm, ənginar, brokoli, gül kələm, yerkökü, kahı və yaşıl bibər. Soğan və sarımsaq antioksidantlar və seleniumla zəngin olmaqla yanaşı antibakterial və antiviraldır. İçindəki kükürdlər immunitet sistemini gücləndirir, gündəlik enerjinizi artırır.

Təbii probiyotiklər - Bədənimizdəki faydalı və zərərli bakteriyaların tarazlığı pozularsa, xəstəliklərə qarşı həssas oluruq. Nəticədə xroniki yorğunluq başlayır. Probiyotik adlanan faydalı bakteriyalar müdafiə sistemini gücləndirir və bədəni infeksiyalara qarşı qoruyur. Evdə hazırlanan qatıq, turşu xiyar probiotiklərin təbii mənbəyidir. Diyetinizə probiyotiklərin təbii qidaları olan prebiyotik qidaları daxil edin. Təbii probiyotiklərdən bəziləri bunlardır: soğan, sarımsaq

Paxlalı bitkilər - Yüksək lif tərkibi sayəsində həzm sisteminin normal işləməsini təmin edir. Paxlalı bitkilərin demək olar ki, bütün növlərində olan kalsium, B vitaminləri, kalium, maqnezium və E vitamini immunitet sistemini gücləndirir. Tərəvəz zülalı mənbəyi olan quru lobya, qara göz lobya, noxud, yaşıl mərcimək, maş kimi paxlalı bitkiləri yalnız yemək olaraq deyil, həm də qaynadılmış formada salatlarınıza əlavə edə bilərsiniz.

Ədviyyatlar - Masanıza zəncəfil, sarıkök, qırmızı bibər, kəklikotu və darçın kimi ədviyyatlar əlavə edin. Bal və qatığa toz şəklində sarıkök əlavə edib istifadə edə bilərsiniz. Bir az zeytun yağı və qara bibər ilə birlikdə istifadə etmək də faydalıdır. Zəncəfil, immunitet sistemini dəstəkləməyə kömək edən çox güclü bir antibakterial xüsusiyyətə malikdir. Bitki çayınıza kök zəncəfil əlavə edə bilərsiniz.

***Abutel İsmayılı***

# ŞOK: Hər il dünyada eynək istifadə edənlərin sayı artır...



***Gözlərdə görmə zəifliyi yaradan əsas səbəblərdən biri genetik meyillilikdir. Mənfi və ya müsbət nömrəli eynək istifadəsinə göstərişlərin əksəriyyəti genetik amillərlə əlaqədardır. Bundan başqa, konyunktivit xəstəliyi, xüsusilə də allergik konyunktivit gözlərdə qaşıntı yaradır.***

Gözləri daimi qaşımaq da görmənin zəifləməsinə səbəb olur. Ona görə də həkim-mütəxəssislər valideynlərə həmişə məsləhət verirlər ki, uşaqların gözləri qaşındıqda gecikdirmədən həkimə müraciət etsinlər. Gözləri mütəmadi qaşımaq astiqmatizmin yaranması və ya artmasına gətirib çıxarır. Ümumiyyətlə gözlər həm genetik, həm də ətraf mühitin təsiri ilə tez-tez zədə ala bilir.

”İki sahil” xəbər verir ki, bunu həkim-oftalmoloq Emil Yusifov deyib. Həkim-mütəxəssis bildirib ki, şəhər həyatının da gözlərin zəifləməsinə səbəb olduğu faktı təsdiqlənib: ”Şəhər həyatı görmə qabiliyyətinin zəifləməsinə səbəb olur, görməni darlaşdırır. Şəhər yerlərində müəyyən çərçivələrdə olduğumuz üçün üfüqi görmürük və nəticədə uzağıgörmə çətinliyimiz yaranır. Şəhər sakinləri ilə kənddə yaşayanların görmə faizi arasındakı fərq araşdırmalar nəticəsində aydın olub. Bunun səbəbidir ki, bütün dünyada eynək istifadə edənlərin sayı getdikcə artır”.

E.Yusifovun dediyinə görə, görmə zəifliyinə səbəb olan amillərdən biri də yaş faktorudur: ”Yaş artdıqca gözlər müxtəlif səbəblərdən zəifləməyə başlayır. Belə xəstəliklərin bir qismi müalicəyə tabe olur, lakin burada xəstəliyin vaxtında aşkarlanması vacib faktordur”.

# Latviyada peyvənd olunmayanlar marketlərə buraxılmır



***Latviya peyvənd olunmayan sakinlərin marketlərə daxil olmasını qadağan edən qərar qəbul edib. SİA -nın əldə etdiyi məlumata görə, bunu mətbuat konfransında Latviyanın baş naziri Krişyanis Karinş deyib. Onun sözlərinə görə, sakinlər yalnız zəruri mallar satılan yerlərə daxil ola biləcək. Xatırladaq ki, Latviyada əhalinin 50 faizi COVID-19 əleyhinə peyvənd olunub.***

# Dünyanın ilk ekipajsız və elektrikli yük gəmisi




Norveçdə düzəldilən dünyanın ilk ekipajsız və elektriklə çalışan gəmisi, hər şey yolunda gedərsə, bu il ilk səfərinə çıxacaq və ölkənin iki limanı arasında hərəkət edəcək. SİA bu barədə xarici mətbuata istinad edir. Gəminin naviqasiya sistemi sahildəki üç ayrı-ayrı məlumat idarə mərkəzi tərəfindən müşahidə olunacaq.

Karbon buraxması sıfır olan gəmi havanı heç çirkləndirməyəcək. Bundan əvvəl 2018-ci ildə Finlandiyada ekipajsız döyüş gəmisi düzəldilmişdi. Yük gəmisi isə ondan fərqli olaraq elektrikli 103 böyük konteynerlə təchiz edilib.

Limana yanaşma, lövbər atma, gəmiyə yükləmə və boşaltma əməliyyatları hələlik insanlar tərəfindən icra olunacaq. Lakin kran və daşıyıcılar avtomatik işləyəcək. Qeyd edək ki, gəminin 2020-ci il səfərə başlama qərarı koronavirus epidemiyası səbəbindən bu ilə təxirə salınıb.

# Arvadını bıçaqla öldürən şəxs saxlanılıb



Oktyabrın 7-si saat 11 radələrində Abşeron rayonu, Xırdalan şəhərində fərdi yaşayış evində kirayədə yaşayan 1999-cu il təvəllüdlü İnci Umarovanın yaşadığı evdə öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. SİA-nın məlumatına görə, aparılan araşdırmalarla zərərçəkmişin əri 1991-ci il təvəllüdlü Sənan Umarovun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı İnci Umarovaya bıçaqla çoxsaylı xəsarətlər yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Sənan Umarov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**